

**Birinci vitse-prezident Mehriban Əliyeva Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi ilə görüşüb**

2

# Rusiya-Azərbaycan-Türkiyə alyansı yarana bilər



8

Səs
№ 045 (6486) 11 mart 2022-ci il. Qiymәti 60 qәpik

## İlahi dərs: Ukrayna reallığından doğan erməni acizliyi və qorxaqlığı



6

# Azərbaycanın səbri çox böyükdür, amma tükənməz də deyil!

Son vaxtlar Qarabağda gərginlik artmaqda davam edir. Mövqelərimizin mütəmadi şəkildə atəşə tutulması isə artıq adət halını alıb. Maraqlıdır ki, əsas hədəf olaraq Ağdam istiqaməti hədəfə alınır ki, burada separatçı-quldurları və qanunsuz erməni silahlıları işğaldan azad edilmiş ərazilərimizdə aparılan sürətli bərpa prosesini gecikdirməyə, manеələr törətməyə, eləcə də Azərbaycan Silahlı...



5

## Sosial ünsiyyətlə sosial bəlalara doğru




7

## Rusiya iqtisadiyyatının aqibəti necə olacaq?

"Hesab edirəm ki, növbəti dəfə ABŞ prezidenti Co Bayden və onun administrasiyası şou göstərməklə məşğuldur. Aydın məsələdir ki, Rusiya ixracatı üçün ABŞ bazarı kritik...



10

## Abramoviç ŞOKDA: "Çelsi"ni sata bilməyəcək!



16



## Ailədaxili münaqişələr nədən qaynaqlanır?

16

Bizim əsas işimiz ailə zəminində baş verən münaqişənin cinayətə çevrilmədən qarşısını almaqdır. Cinayət baş...



## Universitetlər paytaxtdan çıxarılır?

9

"Düşünürəm ki, universitetlərin Bakıdan çıxarılması ilə bağlı qərarın verilməsi yaxşı olardı. Amma təəssüf ki, bu xeyli...

# Azərbaycan-Türkiyə müttəfiqlik əlaqələri sürətlə inkişaf edir

***Prezident İlham Əliyev dünən Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb. Görüşdə Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyi vurğulanıb. Postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparılıb, həmçinin Zəngəzur dəhlizinin açılmasının, onun region üçün yaratdığı perspektivlərin, bu xüsusda Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti qeyd olunub.***

Görüşdə həmçinin 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş bütün müddəaların Ermənistan tərəfindən icrasının vacibliyi qeyd edilib, habelə Türkiyə və Ermənistan nümayəndə heyətlərinin təmasları mövzusunda müzakirə aparılıb.



Görüşdə Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlığı, Cənub Qaz Dəhlizi, bu dəhliz vasitəsilə qardaş ölkəyə və Türkiyə ərazisindən keçərək Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edilib, həmçinin İğdır-Naxçıvan qaz xəttinin çəkilməsi və bununla bağlı Azərbaycanın dövlət büdcəsində investisiyanın nəzərdə tutulduğu vurğulanıb.

Sonda Azərbaycan-Türkiyə müttəfiqlik əlaqələrinin inkişafından bir daha məmnunluq ifadə olunub. Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycana səfərə dəvət edib.

# İtaliya Baş nazirinin Prezident İlham Əliyevə zəng etməsi İtaliya mətbuatının diqqət mərkəzindədir

***İtaliyanın çoxsaylı kütləvi informasiya vasitələri İtaliya Respublikasının Nazirlər Şurasının Sədri Mario Draqinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng etməsi və telefon söhbəti vaxtı müzakirə olunmuş mövzulara geniş diqqət ayırıb.***

Belə ki, İtaliyanın aparıcı xəbər agentlikləri olan "ANSA", "Adnkronos", "Agenzia Nova", "AGI", "AISE", "La Presse",













eləcə də "Insideover", "Notizie Geopolitiche", "Kmetro0", "Giornale Diplomatico", "Startmag", "Tusiaweb", "RTL", "Affari Italiani", "Borsa Italiana", "La Ragione", "La Sicilia", "Notizie Yahoo", "Informazione", "TFNews", "Alto Adige", "Radio Studio Due", "TV7", "Sasari Notizie", "Olbia Notizie", "Giornale Radio" və sair kimi mətbuat orqanlarında dərc olunmuş yazılarda İtaliya Respublikası Nazirlər Şurasının Mətbuat Xidmətinin və Azərbaycan Respublikası Prezidentinin Mətbuat Xidmətinin məlumatlarına əsasən martın 8-də Mario Draqinin Prezident İlham Əliyevə zəng etməsi, söhbət zamanı Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlığın daha da gücləndirilməsi, xüsusilə də enerji sahəsində əməkdaşlıq, Ukraynadakı böhranla bağlı vəziyyətə dair mövzuların müzakirə edildiyi qeyd olunub.

Məlumatlarda telefon söhbəti zamanı bu il Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu vurğulanıb. Bu müddət ərzində iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluq ifadə olunub. Habelə bildirilib ki, söhbət zamanı Azərbaycan və İtaliya arasında iqtisadi, ticarət və enerji sahələrində səmərəli əməkdaşlığın qurulduğu, enerji sahəsində əməkdaşlıqda Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan Trans-Adriatik təbii qaz boru kəmərinin əhəmiyyəti vurğulanıb, Azərbaycanın İtaliyanın neft təchizatında 1-ci, qaz təchizatında isə 3-cü yer tutduğu qeyd edilib. Yazılarda telefon danışığı zamanı mədəniyyət və təhsil sahələrində həyata keçirilən uğurlu əməkdaşlıq layihələrinin müzakirə olunduğu, bu xüsusda Bakıda İtaliya-Azərbaycan universitetinin yaradılmasının əhəmiyyətinin vurğulandığı, eləcə də tərəflərin iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsi məqsədilə yüksək səviyyəli siyasi dialoqun və qarşılıqlı səfərlər mübadiləsinin davam etdirilməsinə razılıqlarını bildirdikləri qeyd olunub. Məlumatlarda eləcə də, telefon söhbəti zamanı regional mövzular, o cümlədən Ukraynada cərəyan edən hadisələr ətrafında fikir mübadiləsinin aparıldığı bildirilib.

# Birinci vitse-prezident Mehriban Əliyeva Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi ilə görüşüb





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 10-da Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb. Görüşdə Azərbaycanla Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin bu il qeyd olunduğu məmnunluqla vurğulanıb. Sonra ölkələrimiz arasında bir çox sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilib.

# Azərbaycan-Fransa münasibətləri yeni inkişaf mərhələsində



Azərbaycanın xarici siyasətində dünya ölkələri, o cümlədən Avropanın böyük dövlətləri ilə olan əlaqələr müstəsnadır. Dünyada etibarlı tərəfdaş imicini ölkəmizə qazandıran beynəlxalq layihələrdə göstərilən etimad, Bakıda keçirilən möhtəşəm beynəlxalq tədbirlər, yarışlar, dövlətimizin beynəlxalq və regional layihələrdə əsas iştirakçı qismində çıxış etməsi bu əlaqələrin yüksək səviyyədə olmasına dəlalət edir. Regionda, dünyada Azərbaycanla bağlı baş verənlər, böyük siyasi güclərin ölkəmizə münasibəti, Cənubi Qafqazın əsas söz sahibi olan Azərbaycanla əməkdaşlığa böyük önəm verməlri ölkəmizlə münasibətlərin qurulmasına maraqlı olduqlarını birmənalı şəkildə göstərmiş olur. Bu sırada Azərbaycan-Fransa əlaqələrini də qeyd etməliyik. Azərbaycanın xarici siyasətində Fransa ilə münasibətlərin inkişafı xüsusi əhəmiyyət daşıyır. Cənubi Qafqazın lider ölkəsi kimi Azərbaycanla münasibətlərin inkişafına əhəmiyyət verən Fransa ikitərəfli əlaqələrin yüksək səviyyədə saxlanılmasında maraqlıdır. Azərbaycan və Fransa arasında mülki müdafiə, aeronavtika, elmi əməkdaşlıq, turizm, qadın və uşaqların cəmiyyətdə yeri məsələləri haqqında sazişlər imzalanıb. Bu münasibətlər bu gün yeni müstəvidədir.

Fransa Respublikasının Prezidenti Emmanuel Makronun Azərbaycan ilə Fransa Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Azərbaycan Prezidenti Cənab İlham Əliyevə ünvanladığı təbrik məktubuna görə Prezident İlham Əliyev təşəkkürünü bildirib. Azərbaycan Prezidentinin təbrikində deyilir: "Ötən dövr ərzində Azərbaycan-Fransa əlaqələri dinamik inkişaf etmiş, səmərəli əməkdaşlıq münasibətləri formalaşmış və bir çox sahələrdə yaxşı nailiyyətlər əldə olunmuşdur".

Xatırladaq ki, Fransa 1992-ci il fevralın 21-də Azərbaycan ilə diplomatik münasibətlər qurdu, martın 19-da isə Bakıda öz səfirliyini açdı. Avropanın siyasi, iqtisadi, mədəni həyatında mühüm rol oynayan Fransa ilə Azərbaycanın diplomatik münasibətləri, dövlət və hökumət başçılarının yüksək səviyyəli qarşılıqlı səfərləri iki ölkə arasında münasibətlərin ildən-ilə güclənməsinə müsbət təsir göstərmişdir. 1993-cü ildə Azərbaycanın dövlət başçısı, Prezident Heydər Əliyev xarici ölkələrə ilk rəsmi səfərini məhz Fransadan başladı. Azərbaycan-Fransa tərəfdaşlığı Prezident İlham Əliyevin 2003-cü ildən ölkəyə rəhbərlik etdiyi müddətdə daha da dərinləşdi. Prezident İlham Əliyev də ilk xarici və rəsmi səfərini Fransaya etdi. Bu cür siyasi gedişlər Azərbaycanın xarici siyasət kursunda Fransaya böyük önəm verildiyini göstərirdi. Azərbaycan 2009-cu ildə daxil olduğu "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində Avropa ilə fəal dialoq aparmağa başladı. Bu işdə Fransa xüsusi önəm kəsb edirdi. 2014-cü ilin may və 2015-ci ilin aprelində Bakıya rəsmi səfərlər edən Fransa Prezidenti Fransua Olland ilə Prezident İlham Əliyev arasında görüş səmimi və konstruktiv xarakter daşıdı.

Təsadüfi deyil ki, Azərbaycanın xarici siyasətində, eləcə də Avropaya inteqrasiya prosesində Fransa mühüm yer tutur. Qloballaşan dünyanın əsas güc və siyasət mərkəzlərindən biri olan Fransanın Cənubi Qafqazda ticarət tərəfdaşı olan Azərbaycan ilə xüsusən telekommunikasiya, şəhərsalma, nəqliyyat, yüngül sənaye və digər sahələrdə əməkdaşlığı getdikcə möhkəmlənir.

Mahiyyət etibarilə, Azərbaycan-Fransa münasibətləri sülh və təhlükəsizliyə xidmət etməklə yanaşı, iqtisadi tərəqqiyə də geniş imkanlar açır. Sözsüz ki, strateji tərəfdaşlıq səviyyəsinə yüksələn bu əməkdaşlıq bütün sahələrdə yüksələn xətt üzrə inkişaf edir və gələcəkdə qarşılıqlı münasibətlərin yeni mərhələyə qədəm qoyacağı da şübhəsizdir. Ötən illərin ənənəsinin davamı olaraq Prezident İlham Əliyevin 2018-ci ilin iyulunda Fransaya rəsmi səfəri səmərəli və məhsuldar oldu. Səfər zamanı 2,3 milyard dollarlıq sazişlər imzalandı. Həmçinin səfər çərçivəsində Fransanın 11 şirkətinin nümayəndələri ilə səmərəli işgüzar görüşlər keçirildi. Ümumiyyətlə, Azərbaycan-Fransa münasibətləri öz xarakterinə və mahiyyətinə görə sülh və təhlükəsizliyə xidmət etməklə yanaşı, eyni zamanda, Avropada və Cənubi Qafqazda iqtisadi tərəqqiyə geniş imkanlar açır. Strateji tərəfdaşlıq səviyyəsinə yüksələn bu əməkdaşlıq hər iki dövlətin və xalqın qarşılıqlı milli maraqlarına xidmət edir. Bu gün iki ölkə arasında münasibətlər bütün sahələrdə yüksələn xətt üzrə inkişaf edir. Əminliklə demək olar ki, yaxın gələcəkdə qarşılıqlı münasibətlər daha yeni zirvələrə yüksələcəkdir.

## İQTİSADİ SAHƏDƏ ƏMƏKDAŞLIQ ÜÇÜN BÖYÜK POTENSİAL MÖVCUDDUR

Azərbaycanın ilk peyki - "Azərspace-1" Cənubi Amerikada, Fransanın inzibati idarəçiliyində olan Fransız Qvianasındakı Kuru kosmodromundan - Qviana Kosmik Mərkəzindən üzərində üçrəngli Azərbaycan bayrağı olan "Ariane-5" daşıyıcı raketi ilə orbitə buraxılıb. Bu, iki ölkə arasında yüksək kosmik texnologiyalar sahəsində qurulan sıx tərəfdaşlıq nəticəsində mümkün olmuşdur.

Təqdirəlayiq haldır ki, BMT-nin iqlim dəyişiklikyi üzrə 21-ci konfransına evsahibliyi edən Fransa, qlobal istiləşməyə qarşı mübarizə sahəsində üzərinə düşən öhdəliyi yerinə yetirdiyinə görə Azərbaycanı alqışlayıb. Əlbəttə ki, iqtisadi əlaqələr dövlətlərarası münasibətlərin inkişafında xüsusi yer tutur. Bu sahədə müşahidə edilən müsbət dinamika Azərbaycan Fransa arasındakı əlaqələrinin daha da genişlənməsinə töhfələr verir. Ölkələr arasında qeyri-neft sektorunda həyata keçirilən layihələr, Fransa şirkətlərinin Azərbaycanın özəl qurumları ilə işgüzar əlaqələri və digər amillər əməkdaşlıq sahəsində əhəmiyyət kəsb edir. İqtisadi sahədə əməkdaşlıq üçün böyük potensial mövcuddur və Azərbaycanda 50-dən artıq fransız şirkəti fəaliyyət göstərir. Qeyd edək ki, Fransa şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyət göstərməsi və onların həm investor kimi, həm də podradçı qismində bu gün bir çox layihələrdə iştirakı önəmlidir. Fransanın "Elf - Aquitaine" şirkəti "Şahdəniz" neft yatağının istismarına dair müqaviləyə qoşulub. Azərbaycan Dövlət Neft Şirkəti və Fransanın "Total" və "Elf - Aquitaine" şirkətləri arasında Azərbaycanın "Lənkəran - dəniz" və "Talış - dəniz" yataqlarının birgə işlənməsi barədə müqavilə imzalanıb. Bu istiqamətdə artıq bir sıra konstruktiv addımlar atılmışdır. İki ölkə arasında münasibətlərə hüquqi baza yaratmaq məqsədilə artıq 40-dan artıq sənəd imzalanmışdır. Hazırda qloballaşan dünyanın mühüm güc və siyasət mərkəzlərindən biri olan Fransanın Azərbaycanla əməkdaşlığının daha da dərinləşməsinə, respublikamızın Avropa strukturlarına dinamik inteqrasiyasına marağı daha da artıb. Həmçinin, Fransanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşı olan Azərbaycan ilə telekommunikasiya, şəhərsalma, nəqliyyat, yüngül sənaye, şərabçılıq və digər sahələrdə əməkdaşlığı getdikcə möhkəmlənir.

## "SON İLLƏR FRANSA İLƏ AZƏRBAYCAN ARASINDA HUMANİTAR ƏLAQƏLƏR YENİ SƏVİYYƏYƏ YÜKSƏLMİŞDİR"

İki ölkə arasında münasibətlərin belə yüksək səviyyəyə çatdırılmasında Heydər Əliyev Fondunun fəaliyyətinin də özünəməxsus rolu olub. Fondun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyeva bu əlaqələri daim diqqət mərkəzində saxlayır, öz fəaliyyəti ilə ölkələrarası münasibətlərə töhfə verib. Cənab Prezident təbrik məktubunda bildirdiyi kimi, "Bu gün Fransa şirkətləri Azərbaycanın iqtisadi həyatında fəal iştirak edir, Bakıda Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir. Mehriban Əliyevanın bilavasitə rəhbərliyi altında ölkələrimiz arasında mədəni əlaqələrin inkişafına göstərilən diqqəti xüsusilə qeyd etmək istəyirəm. İnanıram ki, iqtisadiyyat, mədəniyyət, təhsil və digər sahələrdə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı bundan sonra da xalqlarımızın və ölkələrimizin rifahına xidmət edəcəkdir".

Ölkəmizlə Fransa arasında əlaqələrin inkişafından danışarkən humanitar sahədə olan əməkdaşlığı da vurğulamalıyıq. Bu əlaqələrin tarixi kökü olsa da bu gün yeni müstəvidə inkişafdadır. Mehriban Əliyeva çıxışlarının birində qeyd etdiyi kimi, tarix boyu dilindən, dinindən asılı olmayaraq insanları, xalqları birləşdirən humanitar sahəyə biz diqqətlə yanaşırıq: "Mən çox şadam ki, son illər Fransa ilə Azərbaycan arasında humanitar əlaqələr yeni səviyyəyə yüksəlmişdir". Azərbaycan dövləti Luvr muzeyinin İslam İncəsənəti Departamentinin bərpasında iştirak edib, Heydər Əliyev Fondunun səyləri ilə Strasburqun Kafedral kilsəsi, Fransanın digər rayonlarında tarixi və memarlıq abidələri bərpa olunub. Müasir dövrdə müstəqil Azərbaycan digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də Fransa dövləti ilə əlaqələrini möhkəmləndirir və çox yüksək dəyərləndirir. Fransanın paytaxtında və regionlarında Azərbaycanın mədəniyyət günləri təşkil olunur, müxtəlif sərgilər, festivallar, konsertlər keçirilir.

Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var, ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir. Bu gün Fransanın ali məktəblərində yüzlərlə azərbaycanlı tələbə təhsil alır, bir çox Fransa universitetlərində Azərbaycan dili və tarixi tədris olunur. Azərbaycanın paytaxtı Bakıda fransız liseyi fəaliyyət göstərir. Bakıda Fransız-Azərbaycan Universitetinin yeni tədris binasının açılışı bu əlaqələrin daha da inkişafına töhfələr verir. Qeyd edək ki, bu ali təhsil ocağı 2014-cü ilin sentyabrında keçirilən ikitərəfli görüşdə Azərbaycan və Fransa prezidentlərinin təşəbbüsü ilə yaranıb. Bu, ölkələr arasında əlaqələrin möhkəmlənməsi və genişləndirilməsində daha bir addım oldu.

Heydər Əliyev Fondunun dəstəyi ilə Fransanın paytaxtında və iyirmi şəhərində Qafqazın mirvarisi olan Azərbaycanın mədəniyyətini təmsil edən sərgilər, konsertlər və digər tədbirlər keçirilib. Parisdə dahi Azərbaycan şairləri Nizami Gəncəvi və Məhsəti Gəncəvinin həyat və yaradıcılığına həsr olunmuş elmi konfranslar keçirilib. Hazırda Azərbaycanın qarşısında duran əsas vəzifə çoxillik işğal nəticəsində dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır. Artıq bu istiqamətdə addımlar atılmışdır. Aparılan abadlıq-quruculuq işlərinə dost ölkələri də töhfələrini verir. "Biz azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi prosesinə Fransanın verdiyi dəstəyi yüksək qiymətləndiririk", deyə qeyd edən Cənab Prezident onu da vurğulayıb ki, eyni zamanda Ermənistan-Azərbaycan münaqişəsi zamanı 4000-ə yaxın itkin düşmüş soydaşımızın taleyinin aydınlaşdırılması məsələsinə ölkənizin göstərdiyi diqqəti alqışlayırıq. Əlbəttə ki, ikitərəfli əlaqələr bundan sonra da dostluq və etimada əsaslanaraq inkişaf edəcəkdir.

**Zümrüd BAYRAMOVA**

# YAP Mərkəzi Aparatının təşkilatçılığı ilə "Dayanıqlı sabah üçün bugünkü bərabərlik" mövzusunda tədbir keçirilib

**Martın 10-da Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının təşkilatçılığı ilə partiyanın Nizami rayon təşkilatının qərargahında "Dayanıqlı sabah üçün bugünkü bərabərlik" mövzusunda tədbir keçirilib.**

Tədbirdə giriş sözü ilə çıxış edən YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov bildirib ki, Azərbaycanda gender bərabərliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Onun sözlərinə görə, gender siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsinin hüquqi əsasını Azərbaycanın Konstitusiyası təşkil edir. Eyni zamanda, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun da respublikamızda qadınların hüquqlarının etibarlı müdafiəsi baxımından mühüm əhəmiyyətə malikdir. Qanunda gender balansının qorunması ilə bağlı hüquqi tənzimləmə mexanizmi öz əksini tapıb.




















R.Vəlibəyov Nizami rayonunda gender məsələlərinə həsr olunmuş maarifləndirmə tədbirləri haqqında da məlumat verib.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdir müavini Zəkiyyə Musayeva deyib ki, gender bərabərliyi olan cəmiyyət - qadın və kişinin bərabər üzv olduğu cəmiyyətdir. Belə cəmiyyətdə kişi və qadınların hüquqları bərabər səviyyədə müdafiə olunur. Gender bərabərliyinin təşviqi daimi məsələdir və onun davamlı aparılması vacibdir. Bu sahədə vətəndaş cəmiyyəti subyektləri də əhəmiyyət kəsb edən məsələləri əhatə etmək istiqamətində aktiv fəaliyyət göstərir. Eyni zamanda, qadınlar kişilərlə bərabər ölkənin ictimai həyatında, iqtisadiyyat, mədəniyyət, elm, incəsənət və digər sahələrdə də uğurla çalışırlar. Elə bir sahə tapmaq olmaz ki, orada qadınlar təmsil olunmasın. Bütün bunlar isə Azərbaycanda gender siyasətinin uğurlarıdır.

Daha sonra çıxış edən YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova bildirib ki, Azərbaycanda uğurlu dövlət gender siyasəti həyata keçirilir. Azərbaycanda gender məsələlərinin xalqımızın ümummilli lideri Heydər Əliyevin hər zaman diqqət mərkəzində olduğunu xatırladan Sədaqət Qəhrəmanova vurğulayıb ki, ulu öndər Heydər Əliyevin hakimiyyətinin bütün dövrlərində qadınlara göstərilən diqqət və qayğının artdığının şahidi olmuşuq. Məhz Onun ölkəmizə rəhbərliyi dövründə Azərbaycan qadınları cəmiyyət həyatının müxtəlif sahələrində öz sözlərini deyə biliblər. Ulu Öndərin fərmanı ilə 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, 2000-ci ildə dövlət qadın siyasəti ilə bağlı fərmanın imzalanması bu sahəyə xüsusi diqqətin ifadəsidir.



Onun sözlərinə görə, Ulu Öndərimizin müəyyənləşdirdiyi bu siyasət Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xüsusilə, dövlətimizin başçısının müvafiq fərmanı ilə 2006-cı ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması böyük əhəmiyyət kəsb edir. Heydər Əliyev ideyaları ətrafında sıx birləşən Azərbaycan qadınları Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyini, qayğısını hər zaman hiss edirlər. Bu gün ölkəmizdə gender bərabərliyi diqqət mərkəzindədir və qadınlarımız da cəmiyyətizin aparıcı hissəsinə çevrilib.

Sonra tədbir diskussiya şəraitində davam edib, iştirakçıların sualları cavablandırılıb.

# Azərbaycanın səbri çox böyükdür, amma tükənməz də deyil!

### RSK-nın Qarabağdakı fəaliyyətində və Rusiya Müdafiə Nazirliyinin Azərbaycanla bağlı rəsmi informasiyalarında ölçülərin götürülməsi birmənalı şərtə çevrilir!

Son vaxtlar Qarabağda gərginlik artmaqda davam edir. Mövqelərimizin mütəmadi şəkildə atəşə tutulması isə artıq adət halını alıb. Maraqlıdır ki, əsas hədəf olaraq Ağdam istiqaməti hədəfə alınır ki, burada separatçı-quldurları və qanunsuz erməni silahlıları işğaldan azad edilmiş ərazilərimizdə aparılan sürətli bərpa prosesini gecikdirməyə, maneələr törətməyə, eləcə də Azərbaycan Si-



lahlı Qüvvələrini gərginlikdə saxlamağa cəhdlər edirlər.

Eyni zamanda, digər istiqamətlərdə də bənzər təxribatçı insidentlər müşahidə olunur. Bütün bunlar isə bilavasitə Rusiya sülhməramlı kontingentinin məsul olduqları Qarabağ ərazilərində baş verir, bu baxımdan, digər sual yaranır ki, 44 günlük müharibədən sonra qaçarkən Kəlbəcərdə və s. azad edilmiş ərazilərimizdə hətta unitazlarını belə özləri ilə daşıyan erməni quldur dəstələrinə həmin cürət haradan qaynaqlanır?

### Rus generalı artıq fəaliyyəti ilə sübuta yetirib ki, onun mövqeyi heç də neytral deyil - faktlar nəyi göstərir?

Artıq məlum olub ki, quldur çetelərinin sözügedən əməllərinə imkan yaradan himayəçiləri var və bu şəxs Rusiya sülhməramlıları kontingentinin komandanı, general-mayor Andrey Volkovdur. Özündən əvvəlki xə-



ləfləri - Muradovun və Anaşkinin Azərbaycan tərəfi ilə pis-yaxşı normal münasibətlər qurmalarından kifayət qədər fərqlənən, getgedə açıq-aşkar erməni separatçılarının maraqlarına işlədiyini nümayiş etdirən, silahlı insidentlərə rəvac verən bu rus generalı artıq fəaliyyəti ilə sübuta yetirib ki, onun mövqeyi heç də neytral deyil. Lakin sən demə, bunun da özəl səbəbləri varmış...

Məlum olub ki, Volkovun Qarabağda şəxsi biznes maraqları yaranıb və o, RSK-nın müvəqqəti yerləşdiyi ərazilərdə öz üzərinə düşən vəzifəsini yerinə yetirməsi yerinə qanunsuz sahibkarlıqla, bizneslə məşğul olur. Hətta onun Azərbaycanın Pirlər kəndində üzüm bağlarının olduğu haqqında da informasiyalar mövcuddur. Üstəlik, adıçəkilən rus generalının digər cinayət əməlləri də üzə çıxıb. İnformasiyalar var ki, Volkov separatçılara kontrabanda xidməti göstərir - gizli silahların keçirilməsindən tutmuş digər cinayətkarlıq əməllərinə qədər. Təbii ki, o öz pul-para hərisliyini havayı həyata keçirmir və Xankəndidəki separat tör-töküntülərinin generala üzüm bağlarını hədiyyə etmələri də əbəs yerə deyil. Amma Volkovun neytrallıqdan çıxaraq vəzifə səlahiyyətlərini aşmasına, daha dəqiq desək, azərbaycanlılara qarşı kin bəsləməsinə daha bir səbəb varmış. Vokov Qarabağı "Artsax" adlandırır və ayrıca ərazi vahidi kimi təqdim edir. Bu haqda da mövcud olan informasiyalar diqqətçəkicidir. Linkə bax:
https://www.youtube.com/watch?v=syZUVJFhsuM

### Erməni diversantları da məhz Volkova arxayın olaraq öz terror məqsədlərini həyata keçirməyi planlaşdırırlar

Belə ki, 44 günlük müharibə başa çatdıqdan, Ermənistan tərəfinin kapitulyasiyasını rəsmi şəkildə təsdiq edən üçtərəfli bəyanat imzalandıqdan sonra azad edilmiş bölgələrimizə erməni diversiya qruplarının sızması xəbərini bir çoxları eşidib və oxuyub. Bu haqda sosial şəbəkələrdə də kifayət qədər məlumatlar da





verilib. Daha dəqiq desək, 2020-ci ilin dekabrında Azərbaycan xüsusi təyinatlılarının Xocavənd rayonunun Köhnə Tağlar və Çaylaqqala kəndlərində xüsusi antiterror əməliyyatlarını həyata keçirməklə erməni diversiya qruplarını məhv etməsi, sağ qalanları isə törətdikləri cinayət əməllərinə görə saxlaması faktı bəlli olduqdan sonra insidentin yaşandığı yerə tələm-tələsik şəkildə məhz Volkov getmişdi.

O, həmin zamanlar RSK komandanının müavini vəzifəsini icra edirdi. Həmçinin, erməni diversantları da məhz Volkova arxayın olaraq öz terror məqsədlərini həyata keçirməyi planlaşdırırdılar. Ancaq ermənilərin planları istədikləri kimi getmədikdə, Volkov təzyiq göstərməyə cəhd edərək erməni quldurlarını xilas etməyə göndərmişdi, hətta ZTR-lə hadisə yerinə qədər gəlib-çıxmışdı.

Fəqət, onun ciddi-cəhdlərinə baxmayaraq Azərbaycan tərəfi çox uzatmadan generalı lazımi yerə geri göndərərək ölkəmizin işinə burnunu soxmamağı tövsiyə etmişdilər. Məhz onun dekabr rüsvayçılığından sonra, görünür, azərbaycanlılara qarşı xüsusi psixoloji kompleksləri yaranmağa başladı. Amma Volkovun komplekslərinin necə və hansı istiqamətdə inkişaf etməsinə baxmayaraq onun cəhdləri bundan sonra da istədiyi nəticəni verməyəcək!

### RSK-nın mövcud komandanı öz fəaliyyəti ilə aqressiv separatçılığın artmasına şərait yaradır

Beləliklə, Volkov sülhməramlı missionerindən Qarabağdakı qanunsuz biznesmenə və quldur dəstələrinin xaç atasına çevrilib. Ona görə də əbəs deyil ki, Azərbaycan tərəfi onun adekvat və neytral fiqurla dəyişdirilməsini israrla tələb edir. Yəni fakt budur ki, RSK-nın mövcud komandanı öz fəaliyyəti ilə aqressiv separatçılığın artmasına şərait yaradır. Bu baxımdan, əgər o dəyişdirilməsə belə, artıq Azərbaycan tərəfi öz tədbirlərini görür və belə davam edəcəyi halda separatçılara layiq olduqları dərsləri də verir, bundan sonra da verəcək. Separatçılar nə qədər azğınlaşırsa, RSK-nın Volkov tipli generalı, eləcə də digər zabitləri vəzifə səlahiyyətlərini aşırlarsa, neytrallıqdan çıxırlarsa, onda Azərbaycan Silahlı Qüvvələrinin dərhal antiterror əməliyyatları keçirməklə yerdə qalan ərazilərimizi də murdar separatçı tör-töküntülərindən təmizləməsi prosesinə kimsə əngəllər törədə bilməz.

Və biz br neçə gün əvvəl məhz Volkovun təlimatı ilə Xankəndiyə gedən qaz kəmərinə qarşı diversiyanın həyata keçirilməsi ehtimalının fakta çevrilməsini, bu təxribatın dərhal Azərbaycan tərəfinin üzərinə yıxması cəhdlərini demirik..! Əbəs deyil ki, erməni tərəfi dərhal bu məsələdə Azərbaycanı ittiham edir, guya vəziyyəti gərginləşdirdiyini iddia edirlər. Əlbəttə ki, bu kimi sərsəm iddialar boş havadan başqa bir şey deyil.

Yeri gəlmişkən, etiraf etməliyik ki, RSK-nın ümumilikdəki 1 il 4 aya yaxın dövr ərzindəki fəaliyyətləri, yaxud fəaliyyətsizlikləri Azərbaycanın ictimai rəyində müəyyən qıcıqlar yaradır. Onların zaman-zaman ərazilərimizdə hərbi təlimlər keçirmələri (maraqlıdır, özlərini kimlərdən müdafiə etməyə hazırlaşırlar?), son vaxtlara qədər təhkim olunduqları Laçın dəhlizi vasitəsi ilə Ermənistandan Qarabağ regionuna istər xarici şəxslərin, istərsə də erməni hökuməti üzvlərinin qanunsuz keçidləri və s. məsələlər də buraya daxildir.

Bu gün Xankəndidə qanunsuz erməni silahlı birləşmələrinin səngər qazmaları, hərbi məqsədli istehkamlar qurmaları, üstəlik, RSK-nın nəzarəti altındakı bölgələrdən Azərbaycan Silahlı Qüvvələrinə atəşə açmaları da danılmaz faktlar sırasındadır.

### Azərbaycanla müttəfiqlik bəyannaməsi imzalayan, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edən bir ölkənin Müdafiə Nazirliyinin ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə qarşı şübhəli münasibət göstərməsi həm hiddət yaradır, həm də çoxsaylı suallar doğurur!

Daha bir qıcıq yaradan fakt Rusiya Müdafiə Nazirliyinin rəsmi saytında Azərbaycan dövlətinin maraqlarına zidd informasiyaların verilməsidir. Buraya "sülhməramlıların fəaliyyəti" ilə bağlı qəribə və çoxsaylı suallar yaradan xəritələrini, separatçıların təxribatları haqqında gündəlik bülletenlərində məlumatların verilməməsini, yalnız erməni mənbələrindən alınan informasiyaları işıqlandırmasını da əlavə etmək olar.

Bu yaxınlarda isə Rusiya MN-nin rəsmi saytında bir az da irəliyə gedilərək daha ge-



niş təxribatçı əmələ yol verilib. Guya Ukraynaya "göndərilən" humanitar yardımla bağlı yayılan məlumatda Suriya ilə yanaşı, Azərbaycanın Qarabağ iqtisadi regionu mövcud olmayan "Dağlıq Qarabağ"la əvəzlənərək, ayrıca ərazi vahidi kimi göstərilib (???!!!). Azərbaycanla müttəfiqlik bəyannaməsi imzalayan, bəyannamədə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edən bir ölkənin Müdafiə Nazirliyinin məhz Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qarşı şübhəli münasibət göstərməsi həm hiddət yaradır, həm də çoxsaylı suallar doğurur.

Təbii ki, Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən Rusiyanın Müdafiə Nazirliyinə sərt reaksiya göstərildi və həmin reaksiya vasitəsi ilə rusiyalı həmkarlarına haqlı iradlar irəli sürüldü, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı belə münasibətlərin nümayiş olunmasına son qoyulması tələbi irəli sürüldü. Əks halda, belə münasibətlərin regionun sabitliyinə əngəllər yaradıldığı xüsusilə vurğulandı. İndi nəticəni də məhz Rusiya tərəfi çıxarmalıdır!

Azərbaycanın səbri çox böyükdür, amma sonsuz da deyil!

**Rövşən RƏSULOV**

# Türkiyə görüşündə qarşılaşan maraqlar

Rusiya ilə Ukrayna arasında olan müharibə bütün dünyanın diqqət mərkəzindədir və dünya ictimaiyyəti mövcud vəziyyəti diqqətlə izləməklə yanaşı, həm də bunun nə ilə yekunlaşacağını maraqla gözləyir. Donetsk və Luqanskın "müstəqilliyini" Ukraynanın tanıması, eləcə də ukraynalıların Krımdan imtina etməsini tələb edən Rusiyanın bu anda öz tələblərindən imtina edəcəyinə ümid edənlər azdır. Bu arada Ukrayna da döyüş meydanındakı real vəziyyətə istinad edərək, Rusiyanın şərtlərini dəyişdirə biləcəyinə ümid edir, amma sözsüz ki, bütün bunların reallığa nə qədər yaxın olduğu tərəflər arasında görüş keçirildikdən sonra bəlli ola bilər.



Tərəflər özləri də bu maraqların nə qədər reallığa yaxın olduğunu bilmək istəyirlər və görüş keçirilməsi razılıqları da sözsüz ki, bundan qaynaqlanır. Doğrudur, bundan əvvəl, yəni 28 fevral və 3 mart tarixlərində keçirilən iki görüşdən konkret razılaşma əldə edilməsə də hər iki tərəfin növbəti görüşlərdən müəyyən gözləntilərinin olduğu bir daha özünü göstərir. Rusiyanın ağır şərtlərinin Ukrayna tərəfindən qəbul edilməyəcəyi bəlli məsələdir, çünki bu şərtlər konstruktiv şərtlər deyil, əksinə, Rusiyanın qarşı tərəfə diqtə etmək niyyətidir. Məhz bu baxımdan da Ukrayna artıq Rusiyaya inanmır. Rusiya da Ukraynanın bundan sonrakı davranışlarına şübhə ilə yanaşır və etibar etmir. Bu baxımdan cəsarətlə deyə bilərik ki, vasitəçilər olmadan tərəflərin müəyyən bir razılığa gəlməsi mümkünsüz görünür. Maraqlıdır, Türkiyənin vasitəçiliyi ilə keçirilən görüşdə Ukrayna və Rusiyanın uzlaşması, bir razılığa gəlməsi mümkündürmü?

Diqqətə çatdıraq ki, bu vaxta qədər Fransa da, Almaniya da tərəflər arasında, yəni Ukrayna ilə Rusiya arasında danışıqlarda vasitəçi olmağa çalışıb. Məhz bu mənada Fransa prezidenti Emmanuel Makronun bir-birinin ardınca həm Rusiyaya, həm də Ukraynaya səfərlər təşkil etməsi təsadüfi deyildi. Məqsəd bəlli idi və Fransa prezidenti müharibənin qarşısını almağa çalışırdı, amma buna nail ola bilmədiyi göz qabağındadır. Əlbəttə ki, Almaniya tərəfinin də səylərinin nəticəsiz olduğu özünü göstərdi və bu iki Avropa ölkəsinin məsələyə müdaxilə etməsinə baxmayaraq heç nəyə nail ola bilmədiyini bütün dünya ictimaiyyəti müşahidə etdi.

Heç şübhəsiz ki, Ukrayna ilə Rusiya arasında sülhün təmin edilməsi istiqamətində Türkiyənin əldə edə biləcəyi nəticəyə Türkiyə və Azərbaycanın nüfuzu və söz sahibi olması fonunda bütün dünya ictimaiyyəti inanır. Dünya ictimaiyyəti inanır ki, Ukrayna ilə Rusiya arasında müharibənin sülhlə nəticələnməsi istiqamətində real addımları ata biləcək ölkə Türkiyə və Azərbaycandır. Yeri gəlmişən bu məqam Qərb diplomatiyasının fiaskosundan, eləcə də Türkiyə və Azərbaycanın uğurundan xəbər verir. Çünki, Ukrayna və Rusiya arasında müharibənin başlamasının qarşısını ala bilməyən, bu müharibəni sonlandırmağı, sülhü bərqərar etməyi bacarmayan Qərb indi Türkiyənin bu məsələni çözəcəyinə, tərəfləri sülhə gətirəcəyinə inanır və sadəcə indi bunu müşahidə edəcək. Bu isə geosiyasi müstəvidə qardaş ölkənin, Türkiyənin diplomatik qələbəsi deməkdir.

Diqqətə çatdıraq ki, istər Ukrayna prezidenti Zelenski, istərsə də Rusiya prezidenti Putin hər məqamda Türkiyə Prezidenti cənab Ərdoğana inanır və böyük rəğbət bəsləyir. Bunu inkar etmək mümkün deyil və hər bir dövlət başçısının ayrı-ayrılıqda görüşlərindən də bu görünürdü. Məhz bu fonda tərəflərin məhz Türkiyənin vasitəçiliyi ilə bir araya gələcəyini söyləməkdə hər kəs haqlıdır. Onu da xatırladaq ki, müharibənin başlanmasından öncə də, müharibə başlanıldıqdan sonra da əksər dünya ölkələrinin liderləri Rusiyadan, şəxsən Putindən üz döndərdiyi halda, Türkiyə və onun lideri Ərdoğan aparılan balanslı siyasətə uyğun olaraq hər iki ölkə ilə dialoqu davam etdirir və bu məqam tərəflərin diqqətindən yayınan deyil. Həm də Putin çox yaxşı başa düşür ki, danışıqları aparması üçün onun başqa bir alternativi də yoxdur və Türkiyə tərəfinə ümid etməyə dəyər. Çox güman ki, hər iki ölkənin, Ukrayna və Rusiyanın XİN rəhbərlərinin 10 mart tarixində Antalya şəhərində görüşünün ardınca bu ölkələrin prezidentlərinin də görüşü məhz Türkiyədə təşkil oluna bilər və bu gözlənilməndir. Təbii ki, bu görüşlərin nəticəsiz qalacağını ağıla belə gətirmək olmur və Türkiyənin tərəflər arasında sülhə nail olacağına hər zamankı kimi ümid böyükdür.

Niyə məhz Türkiyənin vasitəçiliyi ilə sülhə nail olunacağına inanılır? Niyə bu boyda Qərbin vasitəçiliyi deyil, Türkiyənin vasitəçiliyi önəmli sayılır? Məsələ burasındadır ki, Rusiya lideri Putinin Qərbin vasitəçiyi ilə danışıqlara getməsi, sülhə razılıq verməsi onun məhz Qərb diplomatiyası qarşısında davam gətirməməsi, ən azından geri çəkilməsi kimi bir görüntü yaradar, hansıki bu onun üçün qəbuledilməzdir. Amma Türkiyənin vasitəçiliyi Rusiya üçün ən doğru seçim sayılır və bununla rəsmi Kreml həm də bütün dünyaya, xüsusilə Qərbə göstərmək istəyir ki, heç də təklənməyib. Ukrayna tərəfi isə yaxşı bilir ki, məhz Türkiyənin vasitəçiliyi ilə kompromis belə Rusiyanın ağır şərtləri ilə yox, ədalət çərçivəsində olacaq. Türkiyənin ədalətli mövqeyini nəzərə alsaq, cəsarətlə deyə bilərik ki, buna təkcə Ukrayna tərəfi deyil, bütün dünya ictimaiyyəti də inanır.

Sözsüz ki, istər Ukrayna tərəfi olsun, istərsə də Rusiya, hər ikisi bu qarşıdurmadan qalib kimi çıxmaq istəyir. Eləcə də tərəflərin danışıqlar zamanı belə üstünlüklər əldə etmək cəhdləri də təkzibedilməzdir. Yəni, bunu hər iki tərəf arzulayır və buna çalışır. Türkiyənin vasitəçiliyi ilə keçən görüşdə də bu müşahidə edilməlidir və burada təəccüblü heç nə yoxdur. Xüsusilə, rəsmi Moskvanın daha böyük şərtlər, ağır şərtlər diqtə etmək niyyəti də anlaşılandır, amma məsələ burasındadır ki, müharibənin uzanması, itgilər də öz sözünü deyir. Nəzərə almaq lazımdır ki, Rusiyaya qarşı tətbiq olunan sanksiyaların təsirləri də var və bu təsirlər rəsmi Moskvanı müəyyən yumşalmalara məcbur edə bilər. Yəni, Rusiya əvvəlki kimi diqtə etməkdənsə, bunun nəticəsindən də sanksiyalarla üzləşməkdənsə, şərtlərinin müəyyən qisminin razılaşdırılması ilə kifayətlənə bilər. Amma yenə də qeyd etmək lazımdır ki, bu hal yalnız Türkiyənin vasitəçiliyi ilə mümkündür və Rusiya da bundan faydalanmağa çalışacaq. Təbii ki, Ukrayna tərəfi də öz növbəsində bu vəziyyətdən yararlanmaq niyyətindədir və hər bir halda bu ölkə də müharibə faciəsinin davam etdirilməsi niyyətində ola bilməz. Bir sözlə, Türkiyə görüşündə qarşılaşan maraqlar tərəflər arasında qarşıdurmanın, mübahisələrin bundan sonra necə olacağı barədə proqnozlar verməyə ən azından imkan verəcək və sülhün bərqərar olması üçün təkan olacaq.

***İnam Hacıyev***

TƏRS BAXIŞ ÖZƏL

# İlahi dərs: Ukrayna reallığından doğan erməni acizliyi və qorxaqlığı

*Ermənilər üzləşdikləri çıxılmaz vəziyyətlərinə görə yalnız özlərini ittiham etməlidirlər!*

"Ermənistan "putinçi" ittifaqların - KTMT-nin Gömrük İttifaqının (Gİ), Avrasiya İqtisadi Əməkdaşlığı İttifaqının (AİƏT) üzvüdür və o, Ukraynaya qarşı Rusiyaya səs verir. Əgər biz Putin Rusiyasının məhv olmaq üzrə olan müttəfiqləri sırasındayıqsa, bu, bizə nədən xəbər verir? Yaxşı heç nədən".



SİA xəbər verir ki, bu haqda Ermənistanın armenianreport saytının analitikləri yazırlar və bu xüsusda ABŞ-ın rus neftinin və qazının ixracına qoyulan qadağanın və daha iki embarqonu xatırladırlar. Armenianreport ABŞ prezidenti Baydenin fikirlərini sitat olaraq gətirib: "Bu gün mən elan edirəm ki, Birləşmiş Ştatlar Rusiya iqtisadiyyatının əsas arteriyasını hədəfləyib. Biz rus iqtisadiyyatının istənilən neft və qaz ixracını qadağan edirik", Bayden Ağ evdəki çıxışında bildirib və əlavə edib: "Bu, həm də onu göstərir ki, Rusiya qazı daha ABŞ limanlarında qəbul edilməyəcək və ameriakalı xalq putinçi hərbi maşına daha bir güclü zərbə endirəcək... Biz bu yolla Putinə daha bir böyük ağrı hissi yaşadırıq".

### Armenianreport: "Milli rüsvayçılığımız faciəvi perspektivləri ilə uzaqlara doğru gedir"

Erməni saytı Böyük Britaniyanın da 2022-ci ilin axrına rus neftinin və neft istehsalının ixracına son qoyacağını yazır və qeyd edir ki, bu haqda energetika və biznes naziri Kvasi Kvartenq bildirib və bütün bunlardan nəticə çıxararaq onu da yazıb ki, hətta iqtisadçı olmadan bütün bunların Rusiya üçün nəyə başa gələcəyini təsəvvürdə canlandırmaq çətin deyil: "Onu sadəcə iqtisadi cəhətdən boğurlar. Tezliklə bir dollara 500 rubl ödəyəcəklər. Lazım olan hər şeyə yaranmış total qıtlıq, işsizliyin artması və yoxsulluq. Aclıq vaxtları, ya uzunmüddətli, ya da həmişəlik. Rusiyalı, ya da rus olmaq utanc gətirəcək, həm də təhlükə yaradacaq. Banal şəkildə döyə və ya öldürə bilərlər". Bu çərçivədə, yəni Rusiyanın düşdüyü mövcud durumdan Ermənistanın da pay alacağını istisna etməyən armenianreport saytının analitikləri yazırlar ki, baş verənlərin fonunda Ermənistan insanlığa təhlükə yaradan və dünya tərəfindən belə qəbul edilən dövlətin müttəfiqidir. "Biz dəmir pərdənin o biri tərəfindəyik, acı reallıq da belədir", deyə sayt yazır və bildirir ki, bundan sonra hətta tarixi müttəfiqləri olmasına rəğmən ruslar ermənilərə kömək etməyəcəklər: "Ona görə ki, bizim özümüz putinçi Rusiyanın statusundan xilas ola bilmədik. Hansı ki, əla şans var idi. Məxməri inqilabdan sonra biz bu şansı itirdik. Aydın məsələdir ki, bu, Rusiyanın günahıdır. Ancaq bu, heç kimi narahat eləmir. Hər kəs tabloya baxır. Orada isə bizim milli rüsvayçılığımızdır ki, faciəvi perspektivləri ilə uzaqlara doğru gedir".

### Daha bir erməni etirafı: "Kiyev eynilə Bakının getdiyi yol kimi gedir - NATO kimi, Türkiyə ilə də müttəfiqlik"

Erməni analitikləri mövzu üzrə digər cinaha da baxış keçirərək fərqi ortaya çıxarmağa çalışırlar. SİTAT: "İndi isə başqa xəbərə baxaq. Ukraynanın qaranat dövlətləri ABŞ, Türkiyə və ona qonşu ölkələr ola bilərlər. Bu barədə Ukraynanın hakim "Xalqın xidmətçisi" partiyası bəyan edib. Belə bir təklif var ki, Ukraynanın NATO-ya üzv olacağı vaxta qədər həmin ölkələr tam təhlükəsizliyi təmin edəcəklər". Təbii ki, istənilən mövzuda Azərbaycanı da önə çəkməyə adət etmiş ermənilər mövzu ətrafında yazırlar ki, Azərbaycanın adı çəkilməsə də, bu ölkə Ukrayna ilə yaxınlığına görə seçilir: "Ukrayna prezidenti Vladimir Zelenski bizim tarixi düşmənimizlə (Azərbaycanı nəzərdə tutur) strateji müttəfiq olduqlarını dəfələrlə deyib. Bundan əlavə, rəsmi Kiyev eynilə Bakının getdiyi yol kimi gedir - bütün sonrakı axarı ilə NATO kimi, Türkiyə ilə də müttəfiqlik".

### İlahi dərs, İlahi ədalət və acı etiraf: "Nəticələrin Ermənistan üçün nə qədər pis olacağını düşünmək belə qorxuludur"

"Ukrayna bu qarşıdurmadan qalib ayrılmaq üçün bütün şanslara malikdir. Bu, Türkiyə və Azərbaycan üçün yaxşı, Ermənistan üçün isə çox pis xəbər olacaq", yazan erməni KİV-i bu gerçəkliyin ölkələri üçün nə qədər pis nəticələrə gətirib-çıxaracağını qorxaraq yazır. SİTAT: "Hətta nə qədər pis olacağını düşünmək belə qorxu yaradır. Özü də bütün nöqteyi-nəzərlərdən. Lakin nəyəsə təsir etməkdə bizim gücümüz qalmayıb, təəssüf ki...", ermənilərin armenianreport saytının analitikləri, əslində, ölkələrinin hansı vəziyyətə düşdüklərini acı etirafları ilə nümayiş etdirirlər.

Əlbəttə ki, bu reallıq ermənilərin hələ də öz köhnə və uğursuz iddialarını anlamağa kömək etmir. Daha dəqiq desək, ermənilər millət olaraq anlamırlar ki, bu gün üzləşdikləri ağır və çıxılmaz vəziyyətə görə yalnız hazırkı dövrə qədər mövcud olan iqtidarlarını deyil, millət olaraq özlərini də ittiham etməlidirlər. Azərbaycana qarşı uzun illər, 3 onilliklər boyu işğalçılıq və təcavüzkar siyasət yürüdərkən anlamalıydılar ki, bu siyasət onlar üçün yaxşı heç nə vəd etmir. Ümumiyyətlə, əgər erməni xalqı zamanında ağlını toplayaraq başları üzərindən asılmış domokl qılıncını qopararaq kənara atsaydılar, onlara məxsus olmayan torpaqlardan imtina etsəydilər, türkofobiya xislətlərindən uzaqlaşsaydılar, "dünyanın ən qədim milləti" tipli sərsəm xəyalları ilə bəşəriyyətin önündə getdiklərini paranoyik düşüncələri ilə və dəqiqəbaşı səsləndirməklə insanların zəhləsini aparmasaydılar və nəhayət, - Tanrının da "erməni olduğunu" iddia edərək axmaqcasına həyat yaşamasaydılar, bəlkə indi iynə ucu qədər də olsa çıxış yollarını tapmağı bacarardılar. Amma özlərinin də dedikləri kimi, çox gecdir və indi üzləşdikləri vəziyyətdə çabalamağa məhkumdurlar. Əslində isə bu, onlara verilən İlahi dərs, İlahi ədalətdir!

***Rövşən RƏSULOV***

# Sosial ünsiyyətlə sosial bəlalara doğru

*Dilimizin qrammatik xüsusiyyətlərinə ağır zərbə: twk, ncsn, slm, yaxwı, inwellah, yoxsa...*

Müasir dövr həyatımıza bir-birindən rəngarəng "müasirliklər" qatıb. Həmin "müasirliklər" artıq bizi narahat etməyə bilməz. Vəziyyət günü-gündən daha da gərginləşir. Övladlarımız dilimizi, adət-ənənələrimizi unudur, milli mentalitetimizə uyğun olmayan hərəkətlər edirlər. Kimdir günahkar? Valideynlər bunu cəmiyyətdə görür, cəmiyyət isə ilkin tərbiyə ocağı olan ailələrdə, məktəblərdə. Hələlik, günahı bir-birimizin üzərinə ata-ata həyatı davam etdiririk. Lakin günlərin birində elə vəziyyətlə qarşılaşacağıq ki, onda artıq gec olacaq. O vəziyyətdən nə ailələr, valideynlər, məktəblər, müəllimlər, nə də cəmiyyət yaxa qurtara bilməyəcək. Bu, bir gerçəkdir. Həmin gerçəyə aparan çoxşaxəli yolun birindən - bugünkü gənclərimizin sosial şəbəkələrdə yazı mədəniyyətindən danışmaq istəyirəm. Yazı deyiləndə ki, indi artıq yazı mədəniyyəti, savadı, qabiliyyətindən söz açmaq ürək ağrıdır. Bu, hamının bildiyi, göz önündə olan məsələdir. Bəs yazı mədəniyyətinin bu vəziyyətə düşməsinin səbəbləri nələrdir?

### Məktəblərdə inşa, imla, ifadə, yazı işləri azalıb

Başlıca səbəblərdən biri budur. Maraqlıdır, nə üçün məktəblərimizdə inşa, imla, ifadə kimi yazı işlərindən əl götürürük? Bəli, təhsildə yeniliklər edirik. Çox yaxşı. İnşa, imla, ifadələr bu yeniliklərin yerini nə üçün dar edir, bunu anlamıram. Olmazdı ki, həmin yeniliklərlə yanaşı, uşaqlarda yazı mədəniyyətinin formalaşması vasitələrini də əlimizdə əvvəlkitək saxlayaq? Saxlamadıq. Nəticə isə göz qarşısındadır. Gəlin məktəblilərə bir abzaslıq yazı yazdıraq. Birinci onların dəst-xəttinə fikir verək, az yazmaqdan bu, yoxa çıxıb. İkinci sözlərin düzgün yazılışına baxaq, hərf səhfi nə qədər istəsən. Lap yuxarı sinif şagirdlərinə sərbəst bir yazı tapşıraq. Görəcəyik ki, onlar fikirlərini ifadə etməkdə çətinlik çəkirlər, mürəkkəb demirəm, sadə cümlə qura bilmir, xəbərlə mübtədanın yerini səhv salırlar. Elə söhbətin bu yerində cə ədəbiyyat müəllimimizin sinifə daxil olub, "Yığışdırın kitab, dəftəri, imla yazacağıq",- sözləri qulaqlarımda çınlayır. Bax, bu imlalarla bacarıqlar, qabiliyyətlər, düzgün yazı mədəniyyəti formalaşırdı. Yazırdıq, müəllim yazını yoxlayır, sonra özümüzə oxudururdu. Beləliklə, budəfəki səhvləri gələn dəfə təkrar etmirdik. Dilimizin orfoqrafiya lüğətindəki sözlərin düzgün yazılış qaydasını əzbər bilirdik. Bizə inşa tapşırılırdı, üç plandan ibarət olurdu. Bir inşa üçün verilən mövzu haqqında müfəssəl məlumat toplayıb sonra yazmağa başlayırdıq. Bilirdik ki, necə başlayıb, necə bitirməliyik. Müas ir dövrümüzdə hələ başqa sahələrdə çalışanları demirəm, təhsilli gənc jurnalistlərin yazılarını redaktə edənlər bilir onların yazını necə başlayıb, necə bitirməsindəki çətinlikləri. Digər səbəb isə məktəbdən sonrakı həyatımızda gözümüzü ayırmadığımız telefonlardır. Həm sağlamlığımızı, həm də dilimizin düzgün orfoqrafik qaydalarını əlimizdən alan telefonlar. Məktublaşırıq, yəni "yazışırıq". Heç özümüz də bilmirik, nə yazırıq, nə pozuruq. Necə yazırıq, nə yazırıq. Təhsillimiz də, təhsilsimiz də eyni yazı formasından istifadə edir. Artıq cəmiyyətdə yeni yazı qaydaları müəyyənləşib. Çox təəssüf ki, onlar artıq bu yazı qaydaları ilə bir-birilərini çox yaxşı anlayırlar. Söhbətin bu yerində isə ötən illərin məktublarını xatırlayıram...

### Heyif o məktublardan

Məktublar, məktublar... ötən illərin tarixə qovuşan saralmış vərəqləri. Həsrətliləri qovuşduran, uzaqdakıları yaxınlaşdıran, ürəkləri birləşdirən məktublar. Həmçinin, insanların yazı mədəniyyətini formalaşdıran, onlara düzgün yazmaq qabiliyyəti aşılayan, səmimiliyini artıran məktublar. Texnoloji inkişafın qeyri-operativ adı ilə sıxışdırıb sıradançıxmaya məruz qoyduğu sosial itki. Son cümlə ilə razılaşmaq olar. Sürətli internet həyatımızın ayrılmaz hissəsinə çevrilən andan əksər insanlar məktub yazıb, ünvan axtarıb, günlərlə gözləri yolda cavab gözləməzdi. Bu, təbiidir. Söz yox ki, məktubların nə olduğunu məktub yazanlar bilər. Məktubları xatırlamaqda məqsədim indi onların yerini alan sosial ünsiyyət vasitələrindən söhbət açmağımla əlaqədardır. Yerini alan anlamı isə yalnız texnoloji cəhətdən ola bilər. Çünki hələ indi də çoxumuzun ən əziz əşyamız kimi qoruduğumuz, hərdən açıb oxuyarkən o illərə qayıtdığımız, saralmış vərəqlərə bəzən göz yaşlarımızın, bəzən sevincimizin, xoş günlərimizin hopduğu və heç nəyin onların yerini verə bilmədiyi məktublarımız var.




### Həyəcan təbili çalmağın vaxtıdır, dilimizin qrammatik xüsusiyyətləri əldən gedir

İndi ancaq rəsmi yazışmalarda məktubdan istifadə olunur. Digər məktubların yerini isə sosial şəbəkələrdə paylaşılan, "ömrü" qısa yazışmalar alıb. Təbiidir, zaman dəyişir, cəmiyyət müasirləşir, həyatımıza yeniliklər daxil olur. Lakin gəlin etiraf edək ki, bu yeniliklərdən düzgün yararlanmırıq. Bu isə internetdən istifadə edənlərin sayının sürətlə artdığı bir dövrdə cəmiyyətin hər an sosial bəlalara doğru addımladığını danılmaz fakta çevirir. Xeyli araşdırmalardan sonra bu yazını yazmağı özümə borc bildim. Lakin borcumu həyata keçirmək azdır, həyəcan təbili çalmaq lazımdır. Çünki sosial şəbəkələrdə yazışanlar dilimizin qrammatik xüsusiyyətlərinə ağır zərbə endirirlər. Fakta nəzər salaq: Ana yaxın rəfiqəsindən gələn mesajı oxuyur və ona cavab yazır. Yazını bitirir, mesajı yenidən oxuyur, səhvlərini düzəldir. Bunu kənardan müşahidə edən oğlu,"-Ana, sən yazdığın mesajın səhvlərini də düzəldirsən, nöqtə, vergül qoyursan?",- deyir və gülməyə başlayır. Hələ üstəlik bacısını səsləyir ki, ay bacı, anam yazdığı mesajın səhvini də düzəldir ey... Uşaqların gülüş səsləri bir-birinə qarışır. Ana isə onlara izah etməyə çalışır ki, bu, kiçik bir yazıdır, müəllifi isə sənsən, o yazı səhvləri ilə də, düzləri ilə də sənindir. Hələ üstəlik, təhsilli adamsansa, düzəliş edilməmiş yazını göndərməyi necə qüruruna sığışdıra bilərsən? Onu da anlatmağa çalışır ki, məktub yazılan dövrlərdə təhsili olmayan adam məktub yazarkən onu bir müəllimə, savadı olan adama oxutdurmamış göndərməzdi. Düşünün, nəyə görə? Səhvi olmasın deyə. Əgər təhsili olmayan insan belə düşünürdüsə, ali təhsili olan adam necə səhvə yol verə bilər? Araya sükut çökür... Anaya o "iradlar" səbəbsiz yerə olunmamışdı. Çünki indi insanlar, xüsusən də cəmiyyətimizin böyük bir hissəsini təşkil edən gənclər sosial şəbəkələrdə yeni bir ünsiyyət "dili" yaradıblar. Faktlara nəzər salaq: " Salam, canım, necəsən?-" slm cnm ncsn", "Bu gün gəlirsən?"- "bugn gersn", "Həyatım, universitetdəsən?" - "heytm unidsn", "Səninçün çox darıxmışam, gəlirsən?" - "Sencn chox darxmwam gersn", "Sağ ol, görüşərik"- "Saol gorwrk", "Oldu"- "ok"kimi ifadə olunur. Budur, bir azərbaycanlının yazı forması: ingilislərin "w"su, türklərin "e"si, azərbaycanlıların bir neçə hərfi. Qeyd etdiklərim hələ gündəlik ünsiyyətin ən kiçik elementləridir. Gün uzunu dayanmayan, dincəlməyən insanlar sosial şəbəkələrdə öz aralarında formalaşdırdıqları bu yeni "dildə" səhifə-səhifə yazırlar, pozurlar. Və yazdıqca da dilimizin zənginliyinə, qrammatik xüsusiyyətlərinə zərbədir ki, endirirlər. Müşahidələrimə əsasən deyə bilərəm ki, bu cür yazı alışqanlığı insanların virtual " həyat"ından real həyatına da keçib. Dilimizə aid olmayan hərflərə, sözlərə gənclərin mühazirə dəftərlərində, digər insanların idarə, müəssisə, təşkilatlara müraciət məktublarında, hətta mağazalardan alacaqları ərzaq siyahılarında da rast gəlmək olar.

### Biz dilimizin saflığı uğrunda uzun illər mübarizə aparmışıq

Axı bunu bilməyən yoxdur ki, Azərbaycan dili öz varlığını qorumaq üçün illərlə mübarizə aparmış, mənsub olduğu xalqla birlikdə inkişaf edərək çoxsahəli dünyəvi elmi dil səviyyəsinə yüksəlmişdir. Bu işdə bədii söz ustalarının, ədəbiyyatımızın korifeylərinin əvəzsiz xidmətləri vardır. Onlar ümumxalq dilinə həmişə doğma münasibət bəsləmiş, onun zənginləşməsi və hərtərəfli inkişafı üçün böyük fədakarlıqlar göstərmişlər. Tarixin müəyyən dövrlərində dilimiz düşmən qüvvələrin təzyiqinə, təcavüzünə məruz qalıb. Lakin xalqımızın milli birliyi, milli qüruru sayəsində qorunub, yaşadılıb. Ümummilli Liderimiz Heydər Əliyev bu ənənəni daha böyük əzmkarlıqla davam etdirmiş, xalqına olan sonsuz məhəbbəti ilə ana dilimizi yüksəklərə qaldırmışdır. Ulu Öndərin ana dilinə münasibəti hər bir azərbaycanlı üçün örnəkdir. O danışanda dilimizin səlisliyini, ahəngdarlığını, obrazlılığını üz mimikası və əl-qol jestləri ilə birlikdə heyran olunacaq dərəcədə ifadə edirdi. Dahi Öndər Heydər Əliyev həm də dilimizin təəssübkeşi, qayğıkeşi idi. Məhz Onun verdiyi fərman və sərəncamlarla dilimiz ən böyük qiymətini ala bilmişdir. O, Azərbaycan dilinin qorunub saxlanılması, onun zənginləşdirilməsi istiqamətində misilsiz işlər görmüşdür. Bu işlər indi də dövlət səviyyəsində davam etdirilir.

### Dilimizi qorumaq hər kəsin borcudur

Xalqın hər bir nümayəndəsi öz dilinin təmizliyi uğrunda mübarizə aparmağa, dili yad ünsürlərdən qorumağa borcludur. Azərbaycan dilinin analoqu yoxdur. Bu dilin şirinliyini, gözəlliyini, cazibəsini heç bir dildə tapmaq olmaz. Biz başqa dillərə ehtiramla yanaşmaqla bərabər, ana dilimizə xüsusi diqqət yetirməli, onu qorumalı və yaşatmalıyıq. Çünki dilimiz varsa, biz də varıq. Bu günün səhvini gələcək bizə bağışlamaz. Ona görə də belə həssas məsələlərdə bir-birimizə nəzarət etməli, onu ictimai qınaq obyektinə çevirməklə bu gün qarşısını alıb sabaha aparmamalıyıq. Söhbətimin sonunda söylənməsi vacib bir məsələyə toxunmasam bu yazını tamamlanmış hesab edə bilmərəm: müasir insanların sosial ünsiyyət "dilinə" nəzər salanda onlara veriləsi belə bir sual yaranır. Məgər ingilislər, türklər, ruslar yazışmalarında bizim dilimizdə bir hərfdən, bir kəlmə sözdən istifadə edirlər? Əlbəttə, yox. Belə isə nə üçün məhz biz?

***Mətanət Məmmədova***




## "Şuşa ili Azərbaycanın tarixinə verdiyi dəyərin sübutudur"

Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində 2022-ci ili "Şuşa İli" elan etdi. Ardınca isə 2022-ci ilin yanvarın 5-də bu barədə Sərəncam imzaladı. Sərəncamda qeyd olunur ki, Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynayıb. Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazıb.

Mövzu ilə əlaqədar olaraq, millət vəkili Aydın Mirzazadə SİA-ya bildirib ki, bu il eyni zamanda Şuşa şəhərinin salınmasının 270 illiyik yubleyidir: "2022-ci ilin məhz Şuşa ili elan olunması Azərbaycanın tarixinə nə dərəcədə önəm verməsinin sübutudur. Şuşa ili işğaldan azad olunan torpaqların bərpa edilməsinin və dövlətin bu istiqamətdə apardığı siyasətin göstəricisidir.

***Banuçiçək Hüseynli***

# Rusiya-Azərbaycan-Türkiyə alyansı yarana bilər



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**"Moskva və Ankara qeyd ediblər ki, dünya ABŞ-ın hamının necə yaşamalı olduğuna qərar verdiyi birqütblü dünya olmamalıdır"**

**Bu gün- martın 10-da Rusiyanın xarici işlər naziri Sergey Lavrov və ukraynalı həmkarı Dmitri Kulebanın Antalya Diplomatik Forumu çərçivəsində görüşü keçirilir. Rusiya Xarici İşlər Nazirliyi bu görüşü danışıqlar deyil, "əlaqə" kimi təyin etsə də, ekspertlərin fikrincə, onun Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü və xarici işlər naziri Mövlud Çavuşoğlunun vasitəçiliyi ilə Türkiyə platformasında keçiriləcəyi faktıdır.**

Rusiya Xarici İşlər Nazirliyinin məlumatına görə, Rusiya və Ukrayna diplomatiya rəhbərlərinin görüşü martın 6-da Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında baş tutan telefon danışığından sonra mümkün olub. Ərdoğan Qərbin rus mədəniyyət xadimlərinə hücumlarını pisləyib. Analitiklərin fikrincə, belə mövqe hazırkı vəziyyətdə vacibdir, həmçinin mediada yayılan məlumata görə, tərəflər rublla hesablaşmalar barədə razılığa gəliblər. Bu isə Qərbin bitib-tükənməyən anti-Rusiya sanksiyaları fonunda Türkiyənin də müəyyən qədər Moskvaya dəstək verməyə hazır olmasından xəbər verir.

Xatırladaq ki, Türkiyə hələ bundan əvvəl Rusiyaya qarşı sanksiyalar tətbiq etməkdən imtina etmişdi. Bundan əlavə, Rəcəb Tayyib Ərdoğan bildirib ki, Ankara Rusiya və Ukrayna arasında seçim edə bilməz. Eyni zamanda, bir sıra iş adamları, eləcə də Türkiyə liderinin yaxınları ictimai bəyanatlarında açıq şəkildə bildirirlər ki, Türkiyə ilə Rusiyanın konstruktiv münasibətləri var və Ukrayna ətrafında yaranmış heç bir vəziyyət onlara zərbə vura bilməz, meydana çıxan qlobal geosiyasi transformasiyalarda, yalnız iki ölkənin mövqelərinin yaxınlaşması gözlənilir.

Bir həftə əvvəl Ukrayna prezidenti Vladimir Zelenski Türkiyə və Azərbaycan liderlərinin vasitəçilik təklif etdiyini bildirib. Prezident İlham Əliyevin vasitəçi kimi çıxış edə biləcəyi faktı yanvarda Kiyevə səfərindən və Zelenski ilə görüşündən sonra məlum olub. Səfərdən dərhal sonra Azərbaycan dövlətinin başçısı Vladimir Putinə zəng edərək Ukraynaya səfərini müzakirə edib.

Azərbaycan Prezidenti martın 5-də Bakıda Türkiyə Xarici İşlər Nazirliyinin rəhbərini qəbul edib. KİV-in məlumatına görə, müzakirə olunan məsələlər arasında Ukrayna ətrafındakı vəziyyət də var. Azərbaycan Prezidenti də martın 10-da Rusiya və Ukrayna xarici işlər nazirlərinin görüşünə ev sahibliyi edəcək Antalya Diplomatik Forumunda da iştirak edir.

Rusiya niyə məhz Türkiyənin vasitəçiliyi ilə Lavrov və Kuleba arasında danışıqlara razılıq verib və hazırkı vəziyyətdə Ankara və Bakının rolunun nə ola bilər? Bu məsələləri rusiyalı ekspertlər "Moskva-Baku" platformasına şərhlərində izah ediblər. Şərhləri oxucularımıza təqdim edirik.

**Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov:**

- Rusiyanın öz mövqeyini dünya ictimaiyyətinə, tərəfdaşlarına və qarşı tərəfə çatdırmaq üçün başqa platformadan istifadə edə bilməsi özlüyündə yaxşıdır. Onların nəyisə müzakirə etməyə çalışmaları müsbət faktdır. Açıqcasına demək lazımdır ki, Belarusda Rusiya ilə Ukrayna arasında gedən danışıqlar ümumən aşağı təmsilçi səviyyədə təqdim olunur. İki ölkənin xarici işlər nazirləri səviyyəsində təmas tərəflərin məsuliyyət səviyyəsini və irəli sürülə biləcək təkliflərin dərəcəsini artırır.

**"Ukrayna hadisələrindən sonra dünya fərqli olacaq və indi gələcəyin yeni ittifaqlarının qurulmasına başlanılır"**



Rusiya prezidentinin xüsusi nümayəndəsi Medinskiyə hörmətlə yanaşmamıza baxmayaraq xarici işlər naziri Lavrovun statusu həm rəsmi, həm də qeyri-rəsmi iyerarxiyada xeyli yüksəkdir. Amma bütün bunlarla Türkiyədəki danışıqlardan hansısa nəticə gözlədiyimizi söyləməyə dəyməz- iki tərəfin mövqeləri kökündən fərqlidir. Amma bu istiqamətdə istənilən təmas müsbət fakt olacaq.

Türkiyənin bir neçə aylıq təkliflərdən sonra Rusiyanın ən azı xarici işlər nazirləri səviyyəsində burada və indi vasitəçiliyinə razılıq verməsi onu göstərir ki, Moskva və Ankara gələcək dünyanın formalaşmasında təxminən eyni maraqlara malikdir. Həm Moskva, həm də Ankara bir-birini kifayət qədər konstruktiv tərəfdaş kimi görür.

Moskva və Ankara dəfələrlə qeyd ediblər ki, dünya birqütblü olmamalıdır, dünya ABŞ-ın tək hegemon olduğu kimi bir dünya olmamalıdır, hansı ki o, hamı üçün necə yaşamaq, nə istehsal etmək, necə inkişaf etmək barədə qərar versin. Ona görə də deyə bilərik ki, Putin və Ərdoğan hansısa formada vahid cəbhə kimi mübarizə aparırlar.

Türkiyə Rusiyaya açıq şəkildə göstərir ki, o, bu yeni yaranan dünyada olmaq niyyətindədir və onun formalaşmasında fəal iştirak etməyə hazırdır. Və qismən hətta Rusiyanı indiki çətin vəziyyətdə konkret dəstəkləyir.

NATO üzvü olan Türkiyə Rusiyaya qarşı sanksiyalara qoşulmadı. Üstəlik, əminəm ki, ötən gün Rusiya və Türkiyə liderləri arasında baş tutan telefon danışıqları zamanı Ankaranın Rusiyaya dəstəyi ilə bağlı müəyyən tədbirlər müzakirə olunmuş ola bilər. Ən azından iqtisadi baxımdan. Bu, Ankaranın gələcək üçün gördüyü işlərdir. Biz görürük ki, bir sıra dövlətlər indiki siyasi və iqtisadi dünya arxitekturasının sökülməsi ilə bağlı Rusiyanın mövqeyini az-çox fəal şəkildə dəstəkləyiblər. Türkiyə uzun müddətdir və ardıcıl olaraq dünyanın dəyişməsini müdafiə edən dünya oyunçularından biridir. İndi də Putinlə Ərdoğanın ünsiyyətdə olması iki dövlətin ortaq maraqlarının olduğunun və bu məsələdə qarşılıqlı dəstəyə arxalana biləcəyinin əlavə təsdiqidir.

Rusiya və Ukrayna xarici işlər nazirləri arasında təmasların Ərdoğanın təşəbbüsü və Türkiyə xarici işlər nazirinin vasitəçiliyi ilə Türkiyə ərazisində baş tutması Türkiyə prezidentinin xeyrinə əlavə məqamlardır. O, beynəlxalq siyasətdə və təkcə Qərbi Asiyada deyil, ümumilikdə Avrasiya qitəsi ərazisində də fəal rolunu nümayiş etdirir. Ərdoğan qlobal geosiyasi gündəmə daxil edilib və o, bunu, yəqin ki, bir sıra Avropa liderlərindən də yaxşı edir. Bu, Türkiyənin aparıcı dünya güclərindən biri kimi daha da irəliləməsi baxımından riskləri də artırır.

İndi Qərb şirkətləri Rusiyanı kütləvi şəkildə tərk edərkən, biz gələcəkdə dünya imkanlarının qlobal paylanmasından danışırıq. Və Türkiyə, Çin, əslində, Latın Amerikası üçün daha çox imkanlar yaranır. İndi bir sıra dövlətlər dünya bazarlarını yenidən formalaşdıra bilərlər. Türkiyə bir çox sahədə Rusiyanı tərk etmiş Qərb bazarlarını əvəz edə bilər. Beynəlxalq ticarətdə dollarla ödənişlərdən qaçınmaq da vacib məqamdır ki, bu da indi fəal şəkildə təşviq ediləcək. Bu mövzu, əslində, bir neçə ildir müzakirə olunur. ABŞ-ın dünya maliyyə mərkəzi statusu ləğv edilir. Və bu, bir çox dövlətlər üçün aktual məsələdir. Bu mərhələyə uzun müddət hazırlaşmağımız və ona doğru fəal şəkildə irəliləməyimiz vacibdir.

Əlavə edəcəyəm ki, son vaxtlar vəziyyət başqa şeylərlə yanaşı, Rusiya və Türkiyənin də fəal oynayacağı yeni dünyanın formalaşmasına doğru gedir. Eynilə də Azərbaycan. Baxın, Rusiyanın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında münaqişəyə son qoyuldu. Gələcəkdə Zəngəzur dəhlizinin açılması həm Rusiya, həm də Türkiyə üçün faydalıdır. Dəhliz Rusiya ilə Türkiyə arasında qurudan birbaşa əlaqə yaradacaq. Bu çox vacibdir. Və burada Azərbaycanın rolunu yüksək qiymətləndirmək mümkün deyil.

# Rusiya-Azərbaycan-Türkiyə alyansı yarana bilər

Şübhəsiz ki, Rusiya və Türkiyə də uzunmüddətli, qarşılıqlı faydalı, konstruktiv tərəfdaşlıq qurmağa hazırdır. Türkiyə bu əlaqələrə maraq göstərir. Və ümid var ki, ölkələrimizin rifahı naminə burada hər şey düzələcək.

Ukrayna problemində vasitəçilik təklifləri baxımından da Azərbaycanın rolu diqqətəlayiqdir ki, bu da Bakının qlobal proseslərdə artan rolunu bir daha təsdiqləyir.

**Politoloq Yevgeni Mixaylov:**

- Əslində, kifayət qədər maraqlı vəziyyət yaranıb. Ötən il Azərbaycan və Türkiyə müttəfiqlik haqda Şuşa Bəyannaməsini imzaladılar. Bu il isə Rusiya və Azərbaycan Müttəfiqlərin Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzalayıblar. Mən bir dəfə təklif etdim ki, bəlkə gələcəkdə biz üçtərəfli alyansı-Rusiya-Türkiyə-Azərbaycan- görəcəyik. Və bugünkü hadisələrin göstərdiyi kimi, mən əminəm ki, bu birlik həm də qeyri-rəsmi formada olsa da, Ukrayna istiqamətində də olacaq.

Lavrovla Kulebanın görüşü heç bir ciddi razılaşmaya gətirib çıxarmayacaq. Amma Rusiyanın Türkiyə tərəfinin vasitəçiliyi ilə aparılan



danışıqlara razılıq verməsi faktının özü maraqlıdır. Axı bu danışıqlar Belarusda da aparıla bilərdi. Rusiyanın Ukraynadakı xüsusi əməliyyatının əvvəlindən Türkiyənin necə kifayət qədər maraqlı mövqe tutduğunun şahidi olduq. O, həm Ukraynanı, həm də Rusiyanı dəstəkləyir.

Ərdoğan Putinə qarşılıqlı həbslaşmaları rublla təklif edir, Qərbin rus mədəniyyət xadimlərinə təzyiqindən qəzəblənir. Türkiyənin bu davranışı insanı belə düşünməyə vadar edir ki, Ərdoğan Ukrayna ətrafında vəziyyətin necə inkişaf edəcəyini qabaqcadan görüb. Türkiyə lideri Rusiyanın dişlərini Qərbə necə çox güclü göstərdiyini gördü. Ərdoğanın vasitəçi mövqeyi kifayət qədər məqbul görünür. O, Əliyev kimi dəfələrlə danışıqlar prosesində vasitəçilik etməyi təklif edib. Moskvanın Rusiya xarici işlər naziri Lavrovla ukraynalı həmkarı arasında danışıqlara razılıq verməsi məni təəccübləndirmir. Bu görüş, digər məsələlərlə yanaşı, Ərdoğanın hər şeyin sülhlə bitməsi üçün göstərdiyi hörmət və səylərin göstəricisidir.

Biz Türkiyənin Krımla bağlı mövqeyini bilirik, lakin Moskva ilə Ankara arasında bəzi sahələrdə, o cümlədən Ukrayna məsələsində fikir ayrılıqlarına baxmayaraq, Rusiya və Türkiyə liderləri burada konstruktiv qarşılıqlı anlaşma, ikitərəfli münasibətlərdə vəziyyətə yanaşma tapa bildilər. Aydındır ki, Ukrayna hadisələrindən sonra dünya fərqli olacaq və indi gələcəyin yeni ittifaqlarının qurulmasına başlanılır. NATO artıq öz müttəfiqləri adlandırılanlara kömək etməkdə acizliyini nümayiş etdirib. Türkiyə Şimali Atlantika Alyansının ən güclü ölkələrindən biri kimi tanınır. Ankara Rusiya ilə də öz siyasətini aparır. Fikrimcə, gələcəkdə Türkiyə nəhayət müstəqil gücə çevrilə və NATO-dan çıxa bilər.

Rusiya bazarını tərk etmiş Qərb şirkətlərinin yerinə türk şirkətlərinin gəlməsi ilə Türkiyə Rusiya ilə iqtisadi əməkdaşlığı artıra bilər. Ölkələrimizin burada əməkdaşlığı dərinləşdirmək üçün böyük imkanları var. Hesab edirəm ki, Rusiya və Türkiyə liderləri telefon danışıqları zamanı da bu məsələni müzakirə ediblər, nəticədə Rusiya və Ukrayna XİN rəhbərlərinin Türkiyədə görüşü elan olunub. İndi də Rusiya bazarına anti-Rusiya sanksiya siyasətini dəstəkləməyən bir çox ölkələr daxil olacaq. Türkiyə və Azərbaycan istəsələr, Avrasiya İqtisadi İttifaqında status ala bilərlər və Rusiya bazarında bir çox Qərb sektorlarını əvəz edə bilərlər. Məncə, hər şey buna doğru gedir.

İndi isə Ukrayna gündəmində Azərbaycanın vasitəçi faktoru ilə bağlı. Xatırladım ki, bir vaxtlar Türkiyə bizim təyyarəmizi vurduqdan sonra Moskva ilə Ankara arasında münasibətlərin bərpasında Azərbaycanın böyük rolu olub. 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Rusiya və Türkiyə sülhməramlı kimi çıxış etdilər və bu, Azərbaycanın Ermənistanla problemini həll etməyə imkan verdi. İndi Azərbaycan və Türkiyə Ukraynaya hər cür köməklik göstərirlər. Şübhə yoxdur ki, bütün bu danışıqlar silsiləsi- Rusiya-Türkiyə, Azərbaycan-Türkiyə- bir-biri ilə əlaqəli addımlardır. Antalya Diplomatik Forumunun keçirildiyi məkanda isə Ankara və Bakı sülhsevər gələcək qurmaq üçün hər cür səy göstərəcəklər.

***Tərcümə - Elçin Bayramlı***



# Universitetlər paytaxtdan çıxarılır?

**“Düşünürəm ki, universitetlərin Bakıdan çıxarılması ilə bağlı qərarın verilməsi yaxşı olardı. Amma təəssüf ki, bu xeyli maliyyə tələb edir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti İlqar Orucov bildirib.**

Onun sözlərinə görə, bu baxımdan universitetlərin paytaxtdan kənara çıxarılması məsələsi hazırda gündəmdə deyil: ”Təbii ki, bu proses şəhərdə sıxlığın azalmasına gətirib çıxarardı. Amma bütün hallarda hazırkı dövrdə düşünmürəm ki, bu proses reallaşa bilər. Çünki Azərbaycan Qarabağda quruculuq işləri ilə məşğuldur. Orada həqiqətən bütün şəhər və rayonlarda yenidənqurma işləri həyata keçiriləcək. Bu baxımdan da dövlətin maliyyəsi bu istiqamətə yönəlib. Əlbəttə ki, bu proses gələcəkdə həyata keçirilməlidir.

Ümumiyyətlə universitetlərin şəhərdən kənarda olması ilə bağlı dünya təcrübəsi də mövcuddur. Bölgələrdə universitetlərin olması da təbii ki, şəhərdə olan sıxlığın azalması istiqamətində böyük əhəmiyyət kəsb edəcək. Universitet şəhərciklərinin salınması da mühüm amil olaraq dəyərləndirə bilər. Bu yaxında Gəncə şəhərində olduq. Gəncə universitetinin yaşı 80-dən çoxdur. Bu o deməkdir ki, həmin şəhərdə fərqli bir mədəniyyət tarixi mövcuddur. Eyni zamanda tələbələrin də bura gətirdiyi fərqli mədəniyyətlər var. Bu baxımdan düşünürəm ki, universitetlərin təkcə paytaxtda olması düzgün deyil. Universitetlər fərqli-fərqli şəhərlərdə olmalıdır. Bu baxımdan həmin şəhərlərə də yeni ruh gətiriləcəkdir.

İşğaldan azad olunmuş torpaqlarımızda universitetlərin fəaliyyət göstərməsi ilə bağlı plan mövcuddur. Düşünürəm ki, onlar qeyd etdiyim işlərin tərkib hissələrindən biridir. Bu da ona gətirib çıxaracaq ki, əslində tələbələr təhsil almaq üçün paytaxta deyil, regionlara da üz tutacaqlar. Təbii ki, regionlarda - Şəkidə, Qubada, Lənkəranda, Naxçıvanda universitetlərimiz var. Amma düşünürəm ki, bu istiqamətdə işləri artırmaq lazımdır”.

***Səbinə Hüseynli***

# “Paşinyanın sözü ilə əməli arasında kəskin fərqlər var”



“Son vaxtlar MDB məkanında Qərb-Rusiya arasında nüfuz dairəsi uğrunda mübarizənin güclənməsi, xüsusilə Rusiya və Ukrayna arasındakı müharibə Cənubi Qafqazda Azərbaycanın qələbəsi nəticəsində yaranmış yeni geosiyasi reallıqların məlum təxribatlar vasitəsilə dəyişdirilə biləcəyinə Ermənistanda müəyyən illüziyalar yaratmışdır. Atəşkəsin pozulması və bunun fonunda Paşinyan iqtidarının Azərbaycanla perspektivdə sülh müqaviləsinin imzalana biləcəyi ilə bağlı açıqlamaları rəsmi İrəvanın sözü və əməli arasında kəskin fərqlərin olmasından xəbər verir”. Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.

E.Manafov bildirib ki, bu kimi hallar tərəflər arasında sərhədlərin demilitasiyası, habelə bölgədə nəqliyyat kommunikasiya dəhlizlərinin açıla biləcəyi ilə aparılan danışıqların intensivliyinə mane olur: ”Erməni tərəfində Rusiya Ukrayna qarşıdurmasında Kiyevin Qərbin dəstəyi ilə duruş gətirəcəyi təqdirdə Rusiyanın nüfuzdan düşəcəyi, onun hərbi qüdrətinin sarsılacağı, iqtisadiyyatının çökə biləcəyi ilə baxışların mövcudluğu da istisna deyil. Cənubi Qafqazdakı yeni geosiyasi reallıqların Qərbi, onun qlobal maliyyə mərkəzlərini qane etmədiyinin mahiyyətinə varan çox ola bilsin ki, Qərbdəki havadarlarının dəstəyi ilə oyuna yenidən başlamaq, revanş götürmək və müharibədəki məğlubiyyətinə görə siyasi imicinə dəymiş ziyana görə məlum qlobal maliyyə mərkəzlərini inandırıb vəziyyəti dəyişmək fikrinə də düşə bilər. Lakin güman edirik ki, onun bu ilin aprel ayında Moskvaya gözlənilən məlum rəsmi səfərindən sonra erməni tərəfi uç tərəfli sazişin şərtlərindən irəli gələn müddəaları yerinə yetirməyə başlasın, çünki Rusiyanın bu bölgə, xüsusilə nəqliyyat kommunikasiya xətləri ilə bağlı məlum maraqlar, ondan rəsmi İrəvana təzyiqlərin gücləndirilməsini tələb edəcək”.

E.Manafov onu da bildirib ki, Rusiyaya tətbiq edilən iqtisadi sanksiyalar şəraitində Rusiya üçün rentabellilik baxımından ən vacib region Cənubi Qafqaz, xüsusilə Azərbaycan olacaq: ”Burada isə lider dövlət olan Azərbaycanla münasibətlərin qarşılıqlı maraqlar müstəvisi üzərinə gətirilməsi zərurəti olduğundan Rusiya bizimlə münasibətlərini strateji tərəfdaşlıqdan müttəfiqlik müstəvisi üzərinə gətirdi. Ölkəmiz isə etibarı tərəfdaş olduğundan Ukrayna ilə bağlı maraqlarının realizə olunacağından sonra Rusiyanın bizim bölgəmizdəki proseslərə Türkiyə ilə bərabər daha geniş nüfuzu münaqişənin yaratdığı problemlərin həlli işinə öz müsbət və həlledici təsirini göstərəcək”.

***Gülyana***

# “Əsas anlaşma Azərbaycanın razılığı ilə baş verir”

“Azərbaycanla Türkiyə arasında münasibətlər Azərbaycanın müstəqillik qazandığı dövrdən bu günə kimi ən yüksək səviyyədə olub. Təbii ki, bəzi zamanlar arada yaşanan xoş olmayan hadisələr az da olsa soyuqlaşma yaradıb. Amma ümumiyyətlə götürdükdə Türkiyə-Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edib və bu gün də belədir”. Bu sözləri SİA-ya açıqlamasında ”Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi”nin rəhbəri Samir Hümbətov deyib.

Onun sözlərinə görə, Şuşa Bəyannaməsindən sonra artıq tərəflər arasında yanlız sözdə deyil, həm də rəsmi şəkildə müttəfiqlik daha da gücləndirilib: ”Cənab Prezident İlham Əliyev dəfələrlə bildirib ki, ”Azərbaycan ordusu Türk ordusunun kiçik modeli formasını alır”.

Eyni zamanda Azərbaycanla Türkiyə həm siyasi, həm iqtisadi tərəfdaşdırlar. Bu gün Türkiyə-Ermənistan arasında gedən danışıqlarda da əsas anlaşma Azərbaycanın razılığı ilə baş verir. Bu da böyük əhəmiyyətə malikdir”.

Samir Hümbətov sözlərinə belə davam edib: ”Azərbaycan Türkiyə ilə iqtisadi sahədə ciddi əməkdaşlıq edir. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə də türk hərbiçiləri minalardan təmizləmə işləri aparır, türk şirkətləri yenidənqurma və bərpa işlərini həyata keçirir. Hətta bütün kommunikasiyaların qurulmasında bilavasitə Türkiyə iştirak edir. Azərbaycanın bu gün dünya arenasında ən çox güvənəcəyi dövlət məhz Türkiyədir. Eləcə də Türkiyənin inanacağı dövlət Azərbaycandır. İstənilən kənar qüvvələrin Türkiyə Azərbaycan münasibətinə təsir etmək imkanı yoxdur.

Bu münasibətlər getdikcə daha da dərinləşəcək. Çünki xalqlar arasında yaxınlıq və doğmalıq var. Bu da hakimiyyət strukturlarında tərəflərin yaxşı münasibət səviyyəsini qorumağa gətirib çıxarır”.

***Ayşən Vəli***

# Kazım Axundov-100:

## Şərəfli ömür yolundan soraqlar

**Qədim Azərbaycan torpağı Şuşanın yaddaşında yaşanan əsrləri əhatə edən tarixdə böyük salnamələr yaranıb. Müdrik ziyalıların nəfəsi duyulan bu torpaqda sözün əsl mənasında, həmişə xüsusi önəm kəsb edən milli mənəvi-dəyərlər əxz olunub. Ayna kimi saf və şəffaf, buz kimi soyuq bulaqlarından su içən, buranın gözəlliklərindən ilhamlanaraq yaşayıb-yaradanların ruhuna hakim olan dəyərlər onları zirvələrə yüksəldib. Gözəlliklər məkanında ruhi rahatlığa qovuşan insanları bir tərəfdən təbiətin gözəlliyi, digər tərəfdən isə onları əhatə edən insanların mənəvi keyfiyyətləri, nəcib hissləri, düşüncələri əhatə edib. Bir sözlə, Şuşanın yaradıcılıq, sənət duyğularından yoğrulmuş mühiti elinə, obasına bağlı olan və ali dəyərləri ilə bu torpağa şöhrət, şərəf gətirən məğrur ziyalılar yetirmişdir.**



Şuşa mühitinin yetirdiyi insanların ismi Azərbaycanın ictimai-mədəni, elmi mühitində fəxarətlə hallanır. Bir sözlə, görkəmli şəxsiyyətlər yetirən ulu yurdumuzun qoynunda tarix boyu nəsillərimizə örnək olacaq dahi şəxsiyyətlər yetişmişdir. Bu alimlərin hər birinin Azərbaycan elminin, mədəniyyətinin və təhsilinin inkişafında xidmətləri vardır. Belə ziyalılardan biri də professor Kazım Fərrux oğlu Axundovdur.

Onun yaşadığı zamanının səhifələrini vərəqləyirik və tərümeyi-halına həkk olunan illər professorun şərəfli ömür yolundan soraqdır. 1922-ci il fevralın 28-də Şuşa şəhərində həkim ailəsində anadan olan Kazım Axundov 1935-ci ildə Bakı 1 saylı Tibb Texnikumuna daxil olub, feldşer sənətinə yiyələnib. 1938-ci ildən 1946-cı ilə qədər feldşer işləyib. 1952-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Sanitar Gigiyena fakültəsini fərqlənmə diplomu ilə başa vurub. Milli Elmi Tədqiqat tibbi profilaktika İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayan Kazım Axundov müxtəlif vaxtlarda ayrı-ayrı vəzifələrdə çalışıb.

1964-cü ildə SSRİ-nin "Səhiyyə əlaçısı" fəxri adını almışdır. Çox keçmir ki, 1970-ci ildə tibb üzrə elmlər doktoru dərəcəsinə, 1973-cü ildə "Əməkdar həkim" fəxri adına layiq görülüb. 1992-ci ildə isə professor diplomunu almışdır. Gigiyena elmi sahəsində 10 nəfər elmlər namizədi, 5 nəfər elmlər doktoru hazırlamışdır. Səmimiliyi ilə seçilən professor işində tələbkar və qətiyyətli olub. Məhz bu və ya digər keyfiyyətləri onu uğura doğru aparıb. Saysız-hesabsız elmi-metodik tövsiyələr, monoqrafiyalar, ixtiralar, elmi məqalələr və tibb elmi sahəsində kitabları işıq üzü görüb.

Vurğulayaq ki, o, 1970-ci ildə Azərbaycan Respublikasında içməli və məişətdə istifadə edilən su mənbələrinin - su ehtiyatlarının sanitar gigiyenik səciyyələndirilməsi və onların sanitar mühafizəsi sahəsində apardığı elmi tədqiqat işlərində əsasən, yaşayış məskənlərinin su ilə təchiz edilməsində nəticələr əldə etmişdir. Belə ki, yeni su mənbələrinin aşkar edilib öyrənilməsində su normativlərinin işlənib hazırlanmasında, suda tətbiq edilən reagentlərin gigiyenik qiymətləndirilməsində və s. sanballı elmi-praktik nəticələri ilə uğur qazamışdır.

Onu da bildirək ki, Kazım Axundov Yeni Azərbaycan Partiyasının yarandığı ilk günlərdən partiyanın üzvü olub. Azərbaycanın əməkdar həkimi, Tibb elmləri doktoru, professor Kazım Axundov 2006-cı ildə dünyasını dəyişib. Dəsti-xətti, özünəməxsus cizgiləri, elmi fəaliyyəti və qənaətləri, nailiyyətləri keçdiyi ömür yoluna təkrarsız naxış salıb.

Bu gün artıq onun doğulub boya-çatdığı Şuşa şəhəri yeni dünyasını yaşayır. İşğaldan azad olunan şəhərdə nəhəng abadlıq-quruculuq işləri aparılır. Bu torpağın əzəli sakinləri tezliklə müasirliklə qədimliyin vəhdətində olan Azərbaycanın mədəniyyət paytaxtı Şuşada həyatlarını davam etdirəcəklər. Nigaran, yorğun, həsrətli baxışlara yeni can gəldi, nəfəs gəldi.

Ruhu göylərdə haray qoparanlar da Zəfər günümüzə şahidlik etdilər. 100 yaşını qeyd etdiyimiz Kazım Axundovun da ruhu bu gün şaddır. Saysız zinəti, rəngi olan bu əsrarəngiz torpaqda ocaq qalanır, tonqal alovlanır, tüstüsü, atəşi ətrafa yayılır və bu torpağın əzəli sakinlərinin donmuş ruhları istilik tapır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# NATO və Azərbaycan münasibətlərində yeni mərhələ

"Bu il Azərbaycanla NATO arasında əməkdaşlığın 30-cu il dönümü qeyd olunacaq. Azərbaycan - NATO münasibətləri 1992-ci ilin martında Azərbaycanın Şimali Atlantika Əməkdaşlıq Şurası qurumuna üzv qəbul edilməsi ilə formalaşmağa başlayıb". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib. Onun sözlərinə görə, Azərbaycan nümayəndə heyəti ilk dəfə olaraq 1992-ci ilin oktyabrında Türkiyədə NATO üzvü olan ölkələrin seminarında iştirak edib və NATO-nun Baş katibi Manfred Vernerlə görüşüb. 1993-cü ilin fevralında isə Azərbaycan nümayəndə heyəti Brüsseldə NATO-nun Avropa təhlükəsizliyi problemləri üzrə keçirdiyi konfransda iştirak edib. Şimali Atlantika İttifaqı ilə Azərbaycanın yüksək səviyyədə əməkdaşlığının əsası isə 1994-cü ildə qoyulub. Ümummilli Lider Heydər Əliyev 4 may 1994-cü ildə Brüsselə səfəri zamanı NATO-nun keçmiş sovet respublikaları ilə əməkdaşlığını nəzərdə tutan "Sülh naminə tərəfdaşlıq" (SNT) sazişini imzalayıb və həmin dövrdən başlayaraq NATO-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün şərait yaranıb. Daha sonra, yəni 1997-ci ilin iyulunda Azərbaycan həmçinin NATO-nun Avroatlantika Əməkdaşlıq Şurası adlı qurumuna da qoşulub. Şimali Atlantika Əməkdaşlıq Şurasından fərqli olaraq təşkilatın bu strukturu Sülh naminə tərəfdaşlıq çərçivəsində məsləhətləşmələr və müzakirələrdən praktiki addımlara keçməyin təminini nəzərdə tutur. Elə həmin il Azərbaycan NATO ilə əməkdaşlığında yeni mərhələ olaraq Planlaşdırma və Analiz Prosesinə qoşulub. Bu proses müdafiə planlaşdırılmasını, yəni əldə olan resursların düzgün istifadə olunmasını nəzərdə tutur. 1997-ci il noyabrın 14-də isə Azərbaycan Prezidenti yanında NATO ilə əməkdaşlıq üzrə dövlət komissiyası yaradılıb və elə həmin il noyabrın 21-də ölkəmizin NATO-nun Brüsseldəki mənzil-qərargahında diplomatik nümayəndəliyi açılıb. Azərbaycan 1999-cu ildə NATO Parlament Assambleyasına müşahidəçi, 2002-ci ildən isə assosiativ üzv qəbul edilib. 2004-cü ildən isə ölkəmiz NATO-nun "Fərdi tərəfdaşlıq" proqramlarına qoşulub. Silahlı qüvvələr üzərində tam demokratik nəzarətin yaradılması, müdafiə tədbirlərinin formalaşdırılması, o cümlədən, NATO-nun norma və standartlarına uyğun olaraq bütün silahlı qüvvələrin təşkilati strukturunun yaradılması əməkdaşlığın əsas sahələridir.



Azərbaycan və NATO arasında praktiki əməkdaşlığın əsas istiqamətləri özündə həmçinin müdafiə və təhlükəsizlik sektorunda islahatları, beynəlxalq əməliyyatlarda iştirakı, fövqəladə hallara hazırlığı, təhlükəsizliklə əlaqəli olan elmi və ekoloji məsələlər və ictimai diplomatiyanı da ehtiva edir. Onu da qeyd edim ki, Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması istiqamətində ciddi addımlar atılıb. 2002-ci ildən etibarən Azərbaycanın 30-dan çox zabiti NATO-nun mənzil-qərargahında və qurumlarında xidmət edib. Hazırda Azərbaycan Ordusunun zabitləri NATO-nun mənzil-qərargahında (Brüssel, Belçika) və NATO Müttəfiq Qüvvələrin Avropadakı Baş Komandanlığının Tərəfdaşlıq İdarəsində (Mons, Belçika) hərbi nümayəndəlik tərkibində milli vəzifələrdə xidmət edir. Azərbaycan və NATO arasında mina və partlamamış silah-sursatların təmizlənməsinə dair "Saloğlu" və "Ceyrançöl" layihələri kimi praktiki layihələr uğurla həyata keçirilib. Burada Azərbaycan Silahlı Qüvvələrinin birləşmələrinin NATO çərçivəsində müxtəlif vaxtlarda Kosovo, İraq və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakını da xüsusi olaraq qeyd etmək lazımdır.

Alyans daim Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək verib. Bu dəstək qurumun 9 Zirvə görüşündə öz əksini tapıb. Zirvə görüşlərinin yekun sənədlərində Azərbaycanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə dəstək ifadə olunub. Bu sənədlərdə Cənubi Qafqazdakı münaqişələrin, o cümlədən keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin vacibliyi vurğulanıb. 2006-cı il noyabr 28-29-da Riqada keçirilən Şimali Atlantika Alyansının toplantısında, 2008-ci il aprelin 2-4-də Buxarestdə keçirilən NATO/EAPC və ISAF, 2009-cu il aprelin 3-4-də Strasburqda keçirilən zirvələrdə verilən bəyannamələr çərçivəsində Azərbaycanın ərazi bütövlüyü dəstəklənib. Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi zəfəri nəticəsində yaranmış yeni reallıq da NATO tərəfindən qəbul olunub. Belə ki, keçən ilin iyununda NATO-nun Brüsseldə keçirilmiş Zirvə görüşünün yekun mətnindən keçmiş Ermənistan-Azərbaycan münaqişəsinə istinad edən bənd çıxarılıb. Bu onu göstərir ki, Alyans da münaqişəni bitmiş sayır. Ümumilikdə isə qeyd etmək lazımdır ki, Azərbaycan və NATO münasibətləri davamlı olaraq yüksələn xətt üzrə inkişaf edir və NATO üzvü olan Türkiyə ilə Azərbaycan arasında imzalanmış Şuşa bəyannaməsi özü də Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıqla yanaşı dolayısıyla həm də Azərbaycan və NATO arasında daha geniş əməkdaşlıq imkanlarını da ehtiva edir

***Banuçiçək Hüseynli***



# Rusiya

## iqtisadiyyatının aqibəti necə olacaq?

"Hesab edirəm ki, növbəti dəfə ABŞ prezidenti Co Bayden və onun administrasiyası şou göstərməklə məşğuldur. Aydın məsələdir ki, Rusiya ixracatı üçün ABŞ bazarı kritik sayıla bilməz". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Elşad Məmmədov deyib. Onun sözlərinə görə, qaz üzrə ümumiyyətlə böyük pay və rəqəmlərdən söhbət gedə bilməz: "İndiki neftə olan tələbatın mövcudluğu şəraitində Rusiya digər istiqamətlərə neft göndərə bilər. Rusiya heç bu nefti göndərməsə belə, neftin qiyməti 1 il ərzində 3 dəfə artıb. Burada hansısa kritik vəziyyətlərdən söhbət gedə bilməz".

İqtisadçı sözlərinə belə davam edib: "Digər tərəfdən hesab edirəm ki, ABŞ-ın indi Rusiyanın ağır neftinin əvəzinə hansı ölkəyə müraciət edəcəyi də bir qədər sürprizlər gətirə bilər. Çünki əslində o qədər də çox alternativ yoxdur. Görünən odur ki, ABŞ ya Venesuellaya, ya da İrana müraciət etmiş olacaq".

***Ayşən Vəli***

# Mədəniyyət və etika haradan başlayır?

**Şəxsiyyətin tərbiyəsində, bir fərd kimi yetişməsində ailədən alınan tərbiyənin əhəmiyyəti çox böyükdür. Araşdırmalar göstərir ki, ailə təhsili almamış şəxslər gələcək həyatlarında çox ciddi problemlər yaşayırlar.**

Hər şey ailədən başlayır və hər uşaq öz evinin güzgüsüdür. Valideyn nəyi aşılasa, uşaq da onu mənimsəyərək tətbiq edir. Məsələn, əgər bir ata uşağının yanında siqareti yerə tullayırsa, sabah onun övladı da atasından öyrəndiyini edəcək.

Uşağın ailədən aldığı tərbiyə uşağın xarakterinin, intellektinin yetkinləşməsini təmin edir. Lakin bəzən əksi də olur. Məsələn, ən savadlı, ən tərbiyəli valideynlərin övladları narkoman, avara, oğru və ya alkaqol alüdəçisi olur. Təəssüf ki, günümüzdə belə ailələrin sayı da az deyil. Bu zaman da ortada belə bir sual yaranır ki, bəs necə olur ki, əgər hər şey ailədən başlayırsa belə yaxşı bir ailənin oğru övladı olur? Buradan isə belə bir qənaətə gəlmək olur ki, ailə insanın formalaşmasında vacib amil olsa da, fərdin öz xarakterindən də çox şey asılıdır. Ailə insanı maksimum 18 yaşına kimi formalaşdıra bilər. Artıq bu yaşdan sonra fərd öz yolunu seçməkdə azaddır. Yəni, günümüzdə 40 yaşlı bir kişiyə atası və ya anasının ”onu belə et”, ”bunu elə et” deməsi biraz qəliz məsələdir.



SİA şəhərdə etiket qaydaları və insanların davranış normaları mövzusu ilə bağlı araşdırma apararaq ekspert və psixoloqların fikirlərini öyrənib.

**Psixoloq Zeynəb Əyyubova:** ”Bu məsələlərin hər biri fərqli travmaların məhsuludur. Məsələn, ictimai nəqliyyatda yüksək səslə danışanlar əgər normal söhbətlərini yüksək səslə danışırlarsa, deməli o insanları diqqət cəlb etməyə ehtiyyacları var. Deməli o insanlar öz böyükləri tərəfindən eşidilməyib və önəmsənməyiblər.

Nalayiq ifadələr işlədənlər isə davranış pozuntusu olan insanlardır. Ya insan bunu görüb, ya şahidi olub, ya da özünə qarşı istifadə olub ki bu gün həmin şəxs onu başqasına sərgiləyir.

Yerə zibil tullamaq məsələlərinə gəldikdə isə bəzi insanlar zibil qablarının az olmasını bəhanə edir ki, ”mən əlimdə zibil saxlaya bilmirəm”. Bəziləri isə özlərindən asılı olmadan çirkləndirməyə meyilli olurlar.

Ümumiyyətlə, uşaq doğulandan etibarən valideynlər onlara davranış qaydaları üzrə müxtəlif vacib məlumatlar verməlidir”.



**Din xadimi Mircəfər Əyyubov:** ”Nalayiq ifadələrlə bağlı dinin mövqeyi bəllidir. Bütün dinlə məşğul olanlar bilir ki, söyüş, təhqir, nalayiq ifadələr, məsxərə, istehza dində qeyri-məqbul və böyük günah sayılır.



Hətta Qurani Kərimdə bir ayə var ki, bütpərəstləsin yalançı tanrılarını da söyməyin. Çünki onlar da sizin tanrınızı söyər.

Ümumiyyətlə, söyüş İslam dini ilə ziddir. İslamda ədəb, gözəl ifadələr şərtdir.”.

**Yazıçı kulturoloq, analitik-ekspert Aydın Xan Əbilov:** ”Son illərdə Bakı çox sürətlə dünyanın ən böyük meqapolisləri sırasına daxil olub. Şəhərləşmə nəinki paytaxtda, hətta Sumqayıt, Gəncə, Naxçıvan, Lənkəran kimi digər bölgələrdə də hiss olunur. Sivil cəmiyyətdə isə gözlə görülə biləcək səviyyədə bir inkişaf yoxdur.

Bəzi insanlar bahalı telefon, maşın, yaxşı yaşayış imkanına sahib olmasına baxmayaraq, evdən çölə çıxan kimi özlərini ibtidai dövrdəki kimi aparmağa başlayır: ”Doğrudur, getdikcə cəmiyyətdə də dəyişikliklər hiss olunur. Necə deyərlər, bir gül ilə bahar olmaz. Cəmiyyətin böyük bir qismi əvvəlki kimidir. Şəhərlərdə zibili pəncərədən çölə atmaq, insanları narahat edəcək dərəcədə səs-küy salmaq, ictimai nəqliyyatda, ümumiyyətlə cəmiyyət içərisində özünü düzgün apara bilməmək kimi problem XXI əsrə qədər gəlib çatıb.

*Ardı Səh. 12*

ARAŞDIRMA

# Mədəniyyət və etika haradan başlayır?

Əvvəli Səh. 11

Qeyri Hökumət Təşkilatları olaraq maarifləndirici layihələr həyata keçiririk. Kütləvi informasiya vasitələri, saytlar, televiziyalar ədəb-nəzakət qayda-qanunları, ictimai-mədəni davranış təbliğ edilir. Amma bütün bunlar sanki insanlara təsir etmir.

Ən maraqlısı isə odur ki, qaydaları pozan insanlar səlahiyyətli şəxslər tərəfindən inzibati məsuliyyətə cəlb olunduqda aqressivləşir, video çəkərək sosial şəbəkələrdə dövlətin onları sıxışdırdığını, azadlığını əlindən aldığını bildirirlər. Həmin insanlar düşünməlidir ki, onların azadlıq sərhədi hər kəslə eynidir.

İnsanların etik qaydalara yiyələnməsi üçün daha çox maarifləndirmə işləri aparılmalıdır. Eyni zamanda, davranış normalarını pozanları ciddi inzibati, hətta cinayət məsuliyyətinə cəlb etmək, cərimələmək lazımdır.



Bu baxımdan baxçalar, məktəblər, ümumilikdə təhsil müəssisələri də öz vəzifəsini yerinə yetirməlidir. Bu müəssisələr yalnız təhsil verməklə kifayətlənməməli, həmçinin, tərbiyə verməli, intellektual səviyyəsi yüksək vətəndaşlar yetişdirməlidir.

Yeganə çıxış yolu vətəndaş cəmiyyəti, QHT-lər, televiziyalar, kütləvi informasiya vasitələri, ictimai xadimlər və mədəniyyət adamlarının birləşərək cəmiyyəti inkişaf etdirməsi, mənfi hallara qarşı ictimai nəzarəti gücləndirməsidir".

**Etika Akademiyasının rəhbəri Günel İbrahim:** "Vaxtımızın çox hissəsini küçədə, nəqliyyatda yad adamların əhatəsində keçiririk. Küçədə və ictimai nəqliyyatda da əsas davranış qaydası başqalarına narahatlıq yaratmamaqdır. Sıxlıq olan yerlərdə digərlərini sıxışdırmaq, hər kəsi itələmək və dirsəklərinizlə itələnmək qəbuledilməzdir.



Əşyalarınızı özünüzə yaxın aparın ki, sıxlıqda çox mane olmasın. Sıx insan axınında dayanmaq lazımdırsa, əvvəlcə kənara çəkilin. Təsadüfən kimisə toxunduqsa və ya kiminsə ayağına basdıqsa, üzr istənilməlidir.

Küçədə diqqətli olun, konfet qablarını və digər zibilləri heç yerə səpələməyin. Yaxınlıqda tullantı qabı yoxdursa, sarğı çantaya və ya cibə qoyun.

Çox yüksək səslə danışmaqla başqalarının diqqətini çəkməyin. Tamaşa və konsertlər zamanı yüksək səslə, jestlərlə diqqəti cəlb etmək qeyri-etik hesab olunur. İstənilən tamaşanın premyerası təntənəli tədbirdir, ona görə də həftə içi günlərdən daha gözəl geyinib gələ bilərsiniz. Tamaşaya gecikmək kobudluqdur.

Yeriniz cərgənin ortasındadırsa, artıq bu sırada oturan tamaşaçılarla üzbəüz getməlisiniz. Teatrda və konsertdə nəsə çeynəmək və ya içmək olmaz. Telefonunuzu vibrasiya rejiminə qoymağı və ya tamamilə söndürməyi unutmayın. Əgər film (tamaşa, konsert) zamanı unutmusunuzsa və telefon zəng çalıbsa - üzr istəyin.

Təbiətdə necə davranmalı? Əsas problem zibildir. Parklarda içəcək plastik qabları və digər lazımsız atqılarla çirləndirmək olmaz. Tullantı qabına qədər gətirmək çətin deyil. Əgər qab çox uzaqdırsa, xüsusi birdəfəlik atqı qabını evdən gətirmək demək olar. Unutmayaq ki, yer kürəsi bizim evimizdir".

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib.

**Şəhər sakini Nicat Ələkbərov:** "Davranış və etika qaydalarını şəhər və kənd olaraq iki yerə ayırmaq mənasızdır. Çünki, etikaya sahib insan üçün məkan amili sonuncu yerdədir. Amma, şəhər və kənd davranışı mövzusunda az da olsa fərqlər var. Məsələn, böyük toplumda yaşayan insan özü ilə yanaşı ətrafındakıların(daha çox sayda insanın) da sosial rifahına diqqət etməlidir. Bunun üçün də fərdlər uşaq yaşlarından düzgün yönləndirilməlidir. Məktəbəqədər hazırlıq və məktəb vaxtından etibarən uşaqlar bu mövzuda maarifləndirilməlidir.

**Şəhər sakini Sona Şıxəmirli:** "Mən açıq fikirli biriyəm. Əsasən kimsə güləndə bu xoş təsir bağışlayır mənə və ya xoş söhbət edən kimlərsə. Amma təəssüf ki, bəzi insanlar bunu qeyri-etik şəkildə edir. Narahatlıqdan əlavə xoş təsir bağışlamır mənə. Bundan əlavə, yerə zibil atanlara heç cür dözə bilmirəm. Hətta bir dəfə gənc bir oğlan əlindəki qida kağızını yerə atdı. Dedim ki, "zibili niyə yerə atırsan?". Belə bir reaksiya verdi ki, "Bəs hara atım? Başa düşmədim hara istəsəm ataram, bundan kimə nə?". Bəli, çox təəssüf ki, belə düşüncədə olanlar və gəzdiyi yerlərin sadəcə özünə aid olduğunu düşünənlər var".

**Şəhər sakini Aliyə Qarayeva:** "Bəzən yolda gedərkən və yaxud parkda gəzərkən bəzi insanlar etik qaydalara riayət etmirlər. Onlar küçədə gəzərkən yerə zibil atır, ətraf mühiti çirkləndirir və yaxud ictimai nəqliyyatda özünü apara bilmir, qışqıra-qışqıra danışır, ətrafdakılara məhəl qoymur. Mən belə insanlara qarşı çox aqressivəm. Onları heç cürə başa düşmürəm. İnsan ictimai yerdə özünü olduğu kimi aparmamalıdır. Yəni, insan ictimai yerdə daha çox mədəni, səliqəli, etikalı görünməyi bacarmalıdır. Əsas bu qaydalara fikir verməlidir ki, insanlarda nifrət hissi oyanmasın.

İnsan etik qaydalara nə qədər çox riayət etsə o qədər də cəmiyyət tərəfindən alqışlanar, nümunə olar və başqaları da onlardan örnək götürər. Etik davranışı yerində olmayan insanların çox ciddi tərbiyə pozuntusu var. Onlar ailədə ümumiyyətlə mədəniyyət, tərbiyə haqqında heç nə görməyiblər və ona görə də cəmiyyətdə özlərini düzgün apara bilmirlər".

***Ayşən Vəli***

# YAP-ın xalqın partiyası olması müqəddəs amallara bağlıdır

## Qarşıda bizləri növbəti tarixi missiyalar gözləyir



*Füzuli ABDULLAYEV, YAP Ağsu rayon təşkilatının sədri*

Yeni Azərbaycan Partiyası yarandığı dövrdən müasir zamanımıza qədər şanlı və böyük mübarizə yolu keçib. Bu gün YAP-ın xalqın partiyası kimi tanınması və yalnız ölkəzimdə deyil, həm Cənubi Qafqaz regionunda, həm də Avropa miqyasında nəhəng nüfuza malik olması da isbat edir ki, zamanın tələblərinə və çağırışlarına uyğun formalaşdıran təşkilatımız əldə etdiyi uğur və nailiyyətləri ilə kifayətlənmir. Məhz bu baxımdan, bütün bu və bu kimi digər mühüm faktorlar davamlı tərəqqi gerçəkliyini təcəssüm etdirməkdədir. Bu gün səkkiz yüz minə yaxın vətəndaşımızın Yeni Azərbaycan Partiyası ətrafında Azərbaycan naminə əqidə, məslək birliyinə tapınması, siyasi həmrəyliyə gəlməsi, dünyaya səpələnən 50 milyona yaxın soydaşımızın Azərbaycanı doğma diyarı, Ana Vətəni kimi sevməsi məhz həmin müqəddəs amalla bağlıdır.

### Ötən dövr ərzində Yeni Azərbaycan Partiyası çox mühüm nailiyyətlərə və irəliləyişlərə imza atıb

YAP xalqın partiyası olaraq istər əvvəlki illərdə, istərsə də hazırda və gələcəkdə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək ölkəmizin dinamik inkişafına öz müstəsna töhfəsini verəcəkdir.

Təbii ki, YAP-ın yeddinci qurultayının qələbə və zəfər ruhunda keçirilməsi də tarixi hadisə olaraq təşkilatımızın səhifəsinə qızıl hərflərlə yazıldı. Prezident İlham Əliyev cənabları qurultaydakı nitqində vurğuladı: "Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir. Bu gün bizim Qələbəmiz dünyanın aparıcı ölkələrinin aparıcı ali məktəblərində öyrənilir. Azərbaycan xalqı birlik, həmrəylik göstərdi. Azərbaycan Ordusu rəşadət, qəhrəmanlıq, peşəkarlıq göstərdi. Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub, öz tarixi torpaqlarını işğalçılardan azad etmişdir. Biz bu tarixi missiyanı yerinə yetirdik".

Daha bir mühüm amil budur ki, Yeni Azərbaycan Partiyasının VII qurultayında partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi. Partiyanın yeni Nizamnaməsi təsdiq edildi, YAP-ın İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi və bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxıldı, qərarlar verildi. Onu da qeyd etmək yerinə düşərdi ki, partiyanın əvvəlki Nizamnaməsinin qəbul olunmasından xeyli müddət keçmişdi. Lakin buna baxmayaraq, ötən dövr ərzində Yeni Azərbaycan Partiyası çox mühüm nailiyyətlərə və irəliləyişlərə imza atıb. Eyni zamanda, yeni islahatlar və dəyişikliklər çərçivəsində partiyanın idarə olunmasında, partiya fəaliyyətinin tənzimlənməsində müvafiq addımların atılması zərurəti yaranmışdı. Bütün bu məsələlər YAP-ın VII qurultayında təsdiq edilən yeni Nizamnamədə öz əksini tapıb. Bütövlükdə isə, bütün bu kimi uğurlu addımlar partiya həyatında daha çevik idarəetmə mexanizminin formalaşdırılmasına stimullarını verdi.

### Mehriban xanım Əliyevanın partiyamızın Sədrinin birinci müavini kimi fəaliyyəti YAP-ın nüfuzunun və gücünün, Yeni Azərbaycan Partiyasına ictimai dəstəyin daha da artması baxımından olduqca mühüm əhəmiyyətə malikdir

Eyni zamanda, tarixi məqam olaraq ən mühüm qərarlardan biri də Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsinə uyğun olaraq, partiyamızın Sədri cənab İlham Əliyevin Sərəncamı ilə Mehriban xanım Əliyevanın partiya Sədrinin birinci müavini təyin olunması oldu. O cümlədən, Tahir Budaqovun partiya Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Əli Əhmədovun isə partiya Sədrinin müavini təyin edilməsi YAP-ın fəaliyyətində yeni keyfiyyət faktorlarının əsasının qoyulmasında öz uğur sözünü dedi. Belə ki, bu uğurlu təyinatların hər biri qarşıdakı dövrdə ardıcıl nailiyyətlərin əldə olunması baxımından xüsusi önəm daşıyır.

Belə ki, Mehriban xanım Əliyevanın partiyamızın Sədrinin birinci müavini kimi fəaliyyəti YAP-ın nüfuzunun və gücünün, Yeni Azərbaycan Partiyasına ictimai dəstəyin daha da artması baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Danılmaz həqiqətdir ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın milli maraqlara, bəşəri dəyərlərə əsaslanan çoxşaxəli fəaliyyəti həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə çox yüksək qiymətləndirilir, dərin rəğbətlə qarşılanır. Mehriban xanım Əliyeva ötən müddət ərzində milli maraqları daim üstün tutaraq xalqa və dövlətə ləyaqətlə xidmət edib, vətəndaş məmnunluğunun artmasına, əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edən mühüm təşəbbüslərlə çıxış edib, xüsusilə də sosial məsələlərin həllinə yüksək diqqət göstərib. Eyni zamanda, fəaliyyəti humanizm və vətənpərvərlik prinsiplərinə əsaslanan Mehriban xanım Əliyeva ölkəmizin müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasına müstəsna töhfələr verib. Beləliklə, Mehriban xanım Əliyevanın partiyamızın Sədrinin birinci müavini təyin edilməsi yeni mərhələdə Yeni Azərbaycan Partiyasının inkişafına təkan verəcək.

### Biz Onunla birlikdə güclüyük!

Ümummilli Liderimiz Heydər Əliyevin qurucusu olduğu, ötən müddət ərzində partiyamızın Sədri, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçən YAP-ın yüksək nüfuzu eyni zamanda, Yeni Azərbaycan Partiyasının, sözün əsl mənasında, ümumxalq partiyası olduğunu göstərir. Bu fakt qələbələr partiyası kimi tanınan Yeni Azərbaycan Partiyasının timsalında iqtidara böyük inam və etibarın olmasından xəbər verir.

6 siyasi partiyanın YAP-a qoşulması faktı isə YAP-ın milli həmrəyliyin təcəssümünə çevrilməsinin bariz təzahürüdür. Belə ki, bu reallıq yeni mərhələdə həm partiyamızın, həm də ölkəmizin inkişafı baxımından mühüm əhəmiyyətə malik olacaq. Ümumiyyətlə, partiya rəhbərliyi tərəfindən verilən hər bir münbit qərar Azərbaycanda siyasi sistemin inkişafına, siyasi münasibətlərin sağlam zəmində cərəyan etməsinə və dialoq mühitinin genişləndirilməsinə xidmət göstərir.

Artıq biz əminliklə deyə bilərik ki, yüksək etimada əsaslanan yüksək keyfiyyətli partiya idarəçiliyi gələcəkdə də ictimai-siyasi proseslərin milli maraqlar əsasında cərəyan etməsinə və Azərbaycan demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsinə, milli həmrəyliyin daha da güclənməsinə xidmət edəcək.

Yeni Azərbaycan Partiyasının VII Qurultayı bir daha göstərdi ki, o, çoxmillətli bir məmləkətin, sülhü, sabitliyi, tolerant, multikultural, ümumbəşəri dəyərləri, humanist prinsipləri həyat tərzinə çevirən, müxtəlif xalqların dostluğuna, qardaşlığına, dinlərin, mədəniyyətlərin sivilizasiyaların dialoquna nail olan, tarixlə müasirliyi özündə birləşdirən bir ölkənin - Odlar Yurdu Azərbaycanın hakim partiyasıdır. Onun başında hər bir azərbaycanlının Prezidenti, Müzəffər Ali Baş Komandan dayanır. Biz Onunla birlikdə güclüyük! O, xalqın arxasında dayandığı kimi, xalq da ona arxalanır, ona inanır, ona güvənir, ona etibar edir, etimad göstərir.



## İmtahan nəticələrində vəziyyət hansı səviyyədədir?

"İlk növbədə qeyd etməliyik ki, 5 və 6 mart tarixlərində keçirilən buraxılış imtahanları abituriyentlər üçün çətin bir vaxta təsadüf edib. Tədris prosesinin davam etməsi, abituriyentlərin hələ də proqramı bitirməməsi onların nəticələrinə öz təsiri göstərəcək". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Onun sözlərinə görə, bu məsələ ilə bağlı imtahana qədərki proses, imtahanın təşkili və test tapşırıqları olaraq üç mərhələ olduğunu deyə bilərik: "İmtahana qədərki proses və eyni zamanda imtahan vaxtı pandemiya səbəbi ilə şagirdlər üçün müəyyən çətinliklər yaratmışdır. Onlar orta məktəb bilikləri ilə deyil, hazırlıq kurslarından əldə etdikləri biliklərlə imtahanlarda iştirak ediblər. Amma repititor və kurslar da imtahanın apreldə olacağını proqnozlaşdırdığı üçün proqramı tamamilə başa vura bilməyiblər. Bu da şagirdlərin imtahan nəticələrində özünü göstərəcək".

Kamran Əsədov sözlərinə belə davam edib: "İmtahanın təşkilində isə təəssüf ki, yenə də nəzarətçilər nəyinsə qarşılığında şagirdlərə kömək etməyə cəhd göstəriblər. Həmin şəxslər imtahan prosesindən kənarlaşdırılıb. Təbii ki, bu xoşagəlməz bir haldır. Belə hallar imtahan prosesinin tam olaraq təkmilləşmədiyini göstərir. İmtahandan sonra isə şagirdlər əsas olaraq riyaziyyat fənninin çətinliyindən şikayət ediblər. Ən əsası isə imtahan başlayan kimi şagirdlərə ingilis dili fənnindən dinləmə suallarının yönəldilməsi onları çətin vəziyyətə salıb. Hesab edirəm ki, dinləmə sualları imtahanın bitməsinə 30-40 dəqiqə qalmış tətbiq edilsə daha yaxşı olar. Çünki ilk olaraq bu tipli çətin suallarla qarşılaşmaq şagirdlər üçün gərginlik yaradır.

Ümumillikdə isə imtahan suallarının pandemiya dövrünə uyğun olaraq təşkil edildiyini demək mümkündür".

*Ayşən Vəli*

## Ermənilərdə üzr istəmək mədəniyyəti yoxdur

"Son günlər erməni sepereatçılarının atəşkəsi pozduğunun şahidi oluruq. Onlar yeni gərginlik dalğası qaldırmağa çalışırlar. Amma onların bu cəbaları lazımsızdır. Çünki Azərbaycan proseslərin həllini təmin edib, artıq ərazi bütövlüyümüz bərpa olunub". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.

Onun sözlərinə görə, Rusiya sülhməramlıları özlərini çox nalayiq şəkildə aparırlar: "Onlar ilk növbədə qanunsuz silahlı dəstələri tərk-silah etməlidirlər. Onların sabitliyi pozamasına imkan verməməlidirlər. Ermənistanın yeni Ombudsmanının Azərbaycan ərazisinə qanunsuz şəkildə səfər etməsi heç bir şeyi dəyişməyəcək. Onsuz da ermənilərdə üzr istəmək mədəniyyəti yoxdur. Bu, onların xislətində var. Ona görə də, belə xalqın Ombudsmanı da bu səviyyədə olacaq. Bizə qarşı edilən bütün qeyri-qanuni hərəkətlər qeyd alınır. Azərbaycanın istintaq orqanları bütün bu prosesləri diqqətdə saxlayır. Bu, pozuntuların hamısı təbii ki, bizim nəzarətimizdədir. Ermənistan tərəfindən bu cinayıtkarlığa qol qoyan bütün "xadimlər"in hamısı məsuliyyətə cəlb olunacaq. Onlar elə bilməsin ki, elədiklər cəzasız qalacaq. Ümumiyyətlə ermənilər heç bir hüquq normalarına hörmət bəsləmirlər".



*Arzu Qurbanzadə*

# YAP-ın ali qayəsi növbəti zəfərlərə doğru inamla addımlamaqdan ibarətdir

**Bütün bu gerçəkliklər isə bizlərin gələcəyimizə daha inamla, qələbə və zəfər ruhu ilə baxmağımıza zəmin yaradır**

Yeni Azərbaycan Partiyasının VII qurultayından keçən bir il ölkəmizin, YAP-ın həyatında bir çox mühüm tarixi məqamlarla yadda qalıb. Dövlətimizin başçısı, YAP-nın Sədri cənab İlham Əliyev partiyanın VII qurultayındakı çıxışında ölkənin iqtidar partiyasının inkişaf tarixinin ən mühüm mərhələlərini təhlil etdi və bu siyasi qüvvənin perspektiv xarakterli strateji hədəflərini açıqladı. Məhz bu baxımdan, YAP-ın VII qurultayı partiyanın tarixində yeni inkişaf mərhələsinin başlanğıcı olaraq qiymətləndirilməkdədir.



*Məhəmməd BALAQADAŞOV,*
*YAP Xaçmaz rayon təşkilatının sədri*

**Azərbaycanın hər bir uğurunda ayrıca payı və töhfəsi olan YAP da VII qurultayını məhz tarixi Zəfərimizin yaratdığı yeni reallıqlar mərhələsində keçirdi**

Artıq kifayət qədər bəllidir ki, son bir ildə aparılan işlərin daha bir qayəsi işğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərinin miqyasını genişləndirmək, bu işləri müasir tələblər səviyyəsində həyata keçirib soydaşlarımızın Böyük Qayıdışını reallaşdırmaqdır. Bu xüsusda, Azərbaycanın hər bir uğurunda ayrıca payı və töhfəsi olan YAP da VII qurultayını məhz tarixi Zəfərimizin yaratdığı yeni reallıqlar mərhələsində keçirdi.

Azərbaycanın bu uğurlarında Ulu Öndər Heydər Əliyevin dahiyanə uzaqgörənliklə müəyyənləşdirdiyi siyasət və hazırda bu xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır. Tarixi həqiqətdir ki, Ümummilli Liderimiz 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın yaşadığı çətinliklərin tezliklə keçib gedəcəyini, hər bir Azərbaycan vətəndaşının qüdrətli Azərbaycanla qürur duyacağını əminliklə səsləndirmişdi. Əlbəttə, bu əminlik Ulu Öndərimizin dövlətinə, xalqına bağlılıq hissinə, zəngin dövlətçilik təcrübəsinə əsaslanırdı. O cümlədən, Heydər Əliyev dühası Azərbaycanın dünyaya Günəş kimi doğacağını öz mütərəqqi uzaqgörənliyi ilə vurğulamışdı. Və bu gün həmin əminlik özünü bütün reallıqları ilə isbatlayıb.

**Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən müasir və müstəqil Azərbaycanımız məhz Ulu Öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır!**

Son 18 ildə xalqımızın Lideri İlham Əliyev cənablarının rəhbərliyi ilə Azərbaycanın qazandığı davamlı uğurlara söykənərək bizlər bu fikri böyük qürur hissi ilə qeyd edirik ki, müasir və müstəqil Azərbaycanımız məhz Ulu Öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır!

Ölkənin inkişafına və cəmiyyətin tərəqqisinə xidmət edən Yeni Azərbaycan Partiyasının əsas hədəflərində də yeniliklərə, təkmilləşməyə meyillilik özünün aydın ifadəsini tapıb. Belə ki, müasir texnologiyaların sürətlə inkişaf etdiyi, kreativ düşüncəli və novatorçu gəncliyə böyük ehtiyac duyulduğu indiki mərhələdə hakim partiyanın 800 minə yaxın üzvünün təxminən 40 faizinin gənclər olması isə uğur reallığının növbəti göstəricisidir. Beləliklə, YAP ölkənin vətənpərvər, intellektual ehtiyatı olan yeni gənc nəsil nümayəndələrini özündə birləşdirən siyasi partiyadır. Xüsusilə vurğulamaq yerinə düşərdi ki, 30 ilə yaxın dövr ərzində təcavüzkar Ermənistanın işğalı altındakı Qarabağ torpaqlarımızın azad edilməsində bütün nəsillərin nümayəndələri uğurlu fəaliyyət göstərdi. Döyüşdə iştirak edənlərin mütləq əksəriyyəti isə cənab İlham Əliyevin Prezident seçildiyi 2003-cü ildən sonrakı dövrlərdə yetişən, milli-dövlətçilik ruhunda ərsəyə gələn gənclərimizdir. Onlar düşmənə göz açmağa imkan verməyərək, vətənpərvərlik və fədakarlıq nümunəsi göstərərək canlarından keçdilər, şəhidlik zirvəsinə ucaldılar və özlərindən sonrakı gəncliyin bəhrələnməsi üçün vətənpərvərlik məktəbini yaratdılar. Bu məktəbin təməlində isə əlbəttə ki, Ulu Öndər Heydər Əliyevin bizlərə miras buraxdığı, Prezident İlham Əliyev tərəfindən isə uğurla inkişaf etdirilən Böyük Azərbaycançılıq ideyaları faktoru dayanmaqdadır.

**Partiyanın VII qurultayında qəbul olunmuş qərarlar paralel olaraq milli həmrəyliyin yeni inkişaf mərhələsinin başlandığını nümayiş etdirdi**

Daha bir mühüm məqamı da qeyd etmək istərdim ki, yaranmış mövcud reallıqlar YAP-da islahatların aparılmasına və yeni fəaliyyət prioritetlərinin müəyyən etdi. YAP yeni idarəetmə modeli isə öz mükəmməlliyi ilə seçilir. Misal üçün, ayrıca olaraq vurğulaya bilərik ki, partiyanın VII qurultayında qəbul olunmuş qərarlar paralel olaraq milli həmrəyliyin yeni inkişaf mərhələsinin başlandığını nümayiş etdirdi.

Partiyada Birinci müavin postunun təsis olunması və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu vəzifəyə təyin edilməsi idarəetmə prosesinin daha da təkmilləşdirilməsini isbatladı. Həmçinin, VII qurultayda YAP-ın yeni Nizamnaməsi təsdiq olundu, təşkilatımızın strukturuna Veteranlar Şurasının, Gənclər Birliyinin, Mərkəzi Aparatın, yerli təşkilatların və onların aparatlarının daxil olduğu təsbit edildi. Eləcə də, Yeni Azərbaycan Partiyasının yeni formalaşdırılmış Mərkəzi Aparatı və yerli strukturları müasir dövrün tələblərini, partiyanın qarşıdakı dövr üçün müəyyənləşdirdiyi hədəfləri yüksək səviyyədə, çevik, səmərəli idarəetmə prinsipləri əsasında həyata keçirərək müasir müstəqil Azərbaycanın daha möhtəşəm uğurlara imza atmasına öz töhfələrini verməkdədir. Bütün bu gerçəkliklər isə bizlərin gələcəyimizə daha inamla, qələbə və zəfər ruhu ilə baxmağımıza zəmin yaradır. YAP hər zaman qələbə və zəfərlər partiyası olaraq öz əməli fəaliyyəti ilə yalnız və yalnız irəliyə doğru mütərəqqi addımlarını atır.

## Təkrar emal nədir?

"Təkrar emal dedikdə məişət və sənaye tullantılarının təkrar emala yönləndirilməsi nəzərdə tutulur". Bu sözləri SİA-ya açıqlamasında ekoloq Cəmşid Quliyev bildirib. Onun sözlərinə görə, yeni məişət tullantıları bu və ya digər formada utilizasiya edilir: "Utilizasiya edilmədikdə üfunət, müxtəlif xəstəliklər, epidemiyalar baş qaldıra bilər. Buna görə də tullantılar mütləq utilizasiya edilməlidir. Bu vacib şərtdir. Amma onun necə utilizasiya edilməsinin də müxtəlif növləri var. Bunlardan biri də təkrar emaldır. Hətta bu ən faydalı formasıdır. İlk növbədə təkrar emala göndərilən məhsullar çeşidləndirilməlidir. Bunu bir layihə kimi də təqribən 15 il əvvəl Bakıda müşahidə etdik. Başqa ölkələrdə bunun daha böyük təcrübələrini də müşahidə edə bilərik. Xüsusilə də bu proses Qərb ölkələrində daha çox inkişaf edib. SSRİ dövründə məişət tullantıları məktəblilər tərəfindən toplanaraq təhvil verilirdi. Sonradan bu təcrübə unuduldu. Qərbdən gələn yeni bir təcrübə forması isə birbaşa məişət tullantılarının utilizasiyası ilə məşğul olan layihədi. İndi də Bakıda bu təcrübə var. Təbii ki, buna nə qədər əməl olunur deyə bilmərəm. Bəzən tullantıların çeşidlənmədən eyni yerə yığılması kimi hallarla da qarşılaşırıq. Bunu həyata keçirmək mümkündür. Lakin buna nəzarət edən qurumlar ciddi yanaşmalıdırlar. Məişət tullantılarının təkrar emala yönləndirilməsi üçün onlar ilk növbədə çeşidlənməlidir. Tutaq ki, şüşə qırıntıları ayrıca, plastik tullantılar isə ayrıca çeşidlənməli və təkrar emala göndərilməlidir. Bunun üçün isə təkrar emal müəssisələrinin olması şərtdir. Balaxanı məişət tullantıları poliqonunda belə bir stansiyanın olduğunu bilirik. Təkrar emal zamanı təbii ki, müəyyən mənfi hallar da mövcuddur. Təkrar emaldan sonra məhsulların keyfiyyətli olması üçün ona müəyyən qatqılar, əlavələr edilməlidir. Təkrar emalla məşğul olan müəssisə bu əlavə xərclərdən qaçmaq üçün bəzən yeni məhsulun keyfiyyətini əldən verir. Ümumiyyətlə isə təkrar emal tullantıların utilizasiyası üçün ən düzgün yoldur".

*Səbinə Hüseynli*

# "Azərbaycan Qarabağda antiterror əməliyyatları keçirə bilər"

*Politoloq Anar Əliyevin "Səs" qəzetinə müsahibəsi*

***- Anar müəllim, Qarabağda rus sülhməramlılarının məsuliyyət zonasında qalan erməni separatçılarının yenidən təxribatlarının sayı artıb. Bu təxribatların arxasında xarici qüvvələrin dayandığını ehtimal etmək olarmı?***

- Azərbaycanın Qarabağ bölgəsində Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti məsuliyyət zonasında erməni separatçı qüvvələri tərəfindən Azərbaycana qarşı təxribatçı addımları son günlər daha da artıb. Hesab edirəm ki, Ukrayna-Rusiya münasibətləri və Rusiyanın Ukrayna daxilində separatçı rejimləri, "Luqanski" və "Donetsk"ini müstəqil respublika kimi tanıması Qarabağdakı separatçı qüvvələrdə müəyyən əsassız ümidlər formalaşdırıb. Bu ümidlərdən çıxış edən separatçı qüvvələr hesab edirlər ki, Azərbaycana qarşı təxribatlar törətməklə Rusiyanın diqqətini özünə cəlb etməklə onları "respublika" olaraq tanınmasına nail ola bilərlər. Ancaq unudurlar ki, 2020-ci ildə Azərbaycan ordusu ərazisindəki separatçı qüvvələrə və işğalçıya qarşı hansı addımları atdı, hansı cəza tədbirlərini həyata keçirdi. Onlar deyəsən unudublar ki, Azərbaycan dövləti onun ərazi bütövlüyünə, dövlət suverenliyinə qarşı hər hansı bir separatçı addıma kəskin formada cavab verəcəkdir.



***- Yəni antiterror əməliyyatlarının aparılması gözləniləndir?***

- Bəli, hər şey mümkündür. Növbəti dəfə Qarabağdakı separatçı qüvvələrə və onların havadarlarına eyni zamanda, Ermənistandakı revanşist qüvvələrə ciddi zərbə vurulacaqdır. Təxribatların baş verməsi həm də Qarabağda rus sülhməramlı qüvvələrinin öz fəaliyyətlərinə məsuliyyətlə yanaşmamalarını, üzərlərinə düşən işin məsuliyyətini tam olaraq dərk etməmələrindən irəli gəlir. Rus sülhməramlı qüvvələri unudurlar ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

***- Rus sülhməramlıları Qarabağa "Laçın dəhlizi" vasitəsilə kimi istədilər buraxırlar və bununla da üzərlərinə düşən vəzifəni yerinə yetirmirlər.***

- Birmənalı şəkildə demək olar ki, rus sülhməramlılarının müvəqqəti nəzarəti altında olan "Laçın dəhlizi" vasitəsi ilə istənilən şəxsin daxil olub və ya bu ərazini tərk etməsi qanunsuzluqdu və Azərbaycanın daxili işlərinə müdaxilə etməkdir. Separatçı qüvvələrin bu davranışları rus sülhməramlı qüvvələrin gözü qarşısında baş verdiyindən hesab edirəm ki, bu, həm də rus sülhməramlı qüvvələrinin Azərbaycan daxilində separatizmə dəstək vermə meyilərindən xəbər verir. Ona görə də Azərbaycan dövləti bu kimi addımlar təkrarlanarsa və davamlı xarakter alarsa, qısa müddətli antiterror əməliyyatları formalaşdırıb həyata keçirməli və Azərbaycan ərazisindən 10 noyabr bəyanatının 4-cü bəndinin tələbinə uyğun olaraq bütün erməni qanunsuz silahlı birləşmələrinin Azərbaycan ərazisindən çıxarılmasına nail olmalıdır və olacaqdır. Həm Ermənistanın revanşist düşüncəli insanları, həm Qarabağdakı separatçı qüvvələri həm onların havadarları, həm də rus sülhməramlı qüvvələri unutmamalıdırlar ki, Azərbaycan dövləti bütün beynəlxalq hüquqla tanınmış ərazi bütövlüyü və dövlət suverenliyinin təmin olunması istiqamətində bütün hüquqları özündə saxlayır, bu hüquqların təmin olunması istiqamətində zəruri addımları atmaq səlahiyyətinə sahibdir. Eyni zamanda, 2021-ci ilin iyun ayının 15-də imzalanmış "Şuşa bəyannaməsi" və 2022-ci ilin fevral ayında imzalanmış "Moskva bəyannaməsi" ilə Azərbaycanın daxili işlərinə heç kimin qarışa bilməyəcəyi və Azərbaycanın öz daxili ərazilərində istənilən əməliyyatları həyata keçirməyin dövlətin suveren hüquqları olduğu bir daha təsdiq olunubdur. Bu hüquqların qarant rolunda çıxış edəcək qüvvələrdən biridə həm Türkiyə, həm də Rusiyadır. Bu vəziyyəti, reallıqları qarşı tərəf düzgün qiymətləndirməlidir və bundan sonra əgər Qarabağda erməni əhalisi qalıb yaşamaq istəyirlərsə, Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər. Ermənilər yalnız Azərbaycan qanunvericiliyinin verdiyi hüquqlardan istifadə etməklə Azərbaycan qanunlarına tabe olmaqla bu istəklərini həyata keçirə bilərlər.

*Gülyana*

# “Oleq Sidorov:

## Sanksiyalar əks tərəfə daha ciddi zərər vuracaq”

Məlum olduğu kimi, Qərb və Rusiya arasında qarşılıqlı sanksiyalar dünya iqtisadiyyatında ciddi problemlərə səbəb olub. Bəs bu sanksiyalar tərəflərə necə təsir edəcək? Rusiya və Qazaxıstan üzrə siyasi strateqi, siyasi elmlər namizədi Oleq Sidorov ”Caliber” analitik mərkəzinə müsahibəsində bu məsələlərə toxunub. Ekspertin müsahibəsini oxucularımıza təqdim edirik.

***- Oleq Nikolayeviç, Rusiya ABŞ və Aİ sanksiyalarına necə müqavimət göstərəcək? Bu, Rusiya iqtisadiyyatının hansı sektorlarına daha çox təsir edə bilər?***

- Gördüyümüz kimi, sanksiyalar əsasən bank, ticarət, nəqliyyat sektorlarına, Rusiya zavodlarında xarici avtomobillərin yığılmasına təsir edib. Əlavə paketi Rusiya vətəndaşlarına, o cümlədən oliqarxlara və siyasətçilərə şəxsən tətbiq edilən sanksiyalar adlandırmaq olar. Lakin sanksiyaların tətbiqi yalnız ilk baxışdan genişmiqyaslı xarakter daşıyır. Əksər hallarda onlar dövlətin həyati fəaliyyətini təmin edən həyati sektorlara təsir etmir.

Belə olan halda nəzərə almaq lazımdır ki, hələ 2014-cü ildən başlayan sanksiya siyasəti nəinki məqsədlərinə çatmadı, əksinə, əks nəticə verdi. Beləliklə, məhdudiyyətlərin tətbiqi əvvəllər xaricdən tədarükdən asılı olan ölkənin daxili sənayelərinin inkişafı üçün stimul oldu. Bu fakta məhəl qoymayan Aİ ölkələri və ABŞ daha bir sanksiya paketi tətbiq etmək qərarına gəliblər ki, onların taleyi sələfləri ilə böyük ölçüdə oxşar olacaq. Bəli, əsas fərq Rusiya oliqarxlarının daşınmaz və daşınar əmlakının Avropa ölkələri tərəfindən müsadirə edilməsi prosesinin başlamasıdır. Amma əslində bunun əksi oldu.

Birincisi, Rusiyanın özündə belə bir hərəkət təsdiqləndi, çünki yaxtalar və çoxmilyonluq malikanələr daim ictimaiyyətin diqqət mərkəzində idi və onların alınmasının qanuniliyi ilə bağlı müzakirə mövzusu idi. Ona görə də bu proses Rusiya dövləti üçün ”ümumiyyətlə” problem yaratmır.

İkincisi, başlayan proses Avropa ölkələrinin mövcudluğunun təməl institutunu sarsıdır. Nəzərinizə çatdırım ki, Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olaraq, insanların qanuni olaraq özlərinə məxsus olan əmlaka sahib olmaq hüququ vardır. Dünyanın başqa ölkələrindən olan milyonçular və milyarderlər Avropada əmlak əldə etməyin fəsadları barədə özləri üçün nəticə çıxaracaqlar. Qəbul edilən qərarların üzvlərinin özləri öz ”oyun qaydalarını” pozan Aİ-nin xeyrinə olacağına şübhə edirəm.

Eyni zamanda, mənə elə gəlir ki, ən əhəmiyyətlisi ABŞ-ın Rusiyaya mikrosxemlər, kompüterlər, telekommunikasiya avadanlıqları və digər malların tədarükünə tətbiq etdiyi sanksiyalardır, əgər onların istehsalında Amerika texnologiyalarından istifadə olunarsa. Bu paket Rusiya sferasını daxili resursların tapılması, o cümlədən elmi-tədqiqat və innovasiyaların və yerli istehsalın intensivləşdirilməsi, eləcə də maraqlarının Çinlə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində yenidən istiqamətləndirilməsi üçün transformasiya etməyə qadirdir. Bəli, vaxt aparacaq və məhsulun bahalaşmasına təsir edəcək. Amma burada onu da nəzərə almaq lazımdır ki, Qərbin kifayət qədər böyük Rusiya bazarından çıxması Çin istehsalçıları üçün vakant yeri doldurmaq imkanı olacaq. Və çətin ki, şirkətlər bu fürsəti əldən versinlər. Axı hamı başa düşür ki, sanksiyaların öz vaxt çərçivəsi var və məhdudiyyətlər götürüləndə uyğunlaşma fərqli olacaq və istehlak bazarı üçün mübarizə aparmaq lazım gələcək.

Mövcud reallıqları və qloballaşma proseslərini nəzərə alsaq, anlamaq lazımdır ki, ölkələrin bir-birindən asılılığı yalnız artacaq, eləcə də ”Günəş altındakı yer” uğrunda rəqabət artacaq, nəticədə hər hansı bu cür sanksiyalar, ticarət müharibələri bütün tərəflər üçün nəticələr verəcək.

***- Anti-Rusiya sanksiyaları Rusiya Federasiyasının, xüsusən də Aİİ-dəki tərəfdaşlarına necə təsir edəcək?***

- Belarusun timsalında biz görürük ki, sanksiyalar Rusiyanın tərəfdaşlarına, o cümlədən Aİİ ölkələrinə də təsir edə bilər. Hazırda Moskvanın bütün tərəfdaşları üçün əməkdaşlığı genişləndirmək və öz istehsal sahələrini və ticarət-iqtisadi əlaqələri inkişaf etdirmək imkanlarından istifadə etmək üçün şərait yaradılır. Hamı başa düşür ki, qloballaşma şəraitində bir ölkəni, xüsusən də yaxşı təbii sərvət ehtiyatlarına malik olan və geniş bazar olan ölkəni 100% təcrid etmək mümkün deyil. Bu fürsətdən istifadə etməmək isə uzaqgörən addım olmaz.

***- Sanksiyalar Azərbaycana nə dərəcədə təsir edə bilər?***

- Azərbaycanın sanksiya təşəbbüskarlarının təsir dairəsinə düşməsi ehtimalı azdır. Bu mümkün deyil. Eyni zamanda, Bakı ikitərəfli münasibətlər qurmaq imkanından istifadə edə bilər ki, bu da Azərbaycanın büdcəsini doldurmağa və digər sahələrdə əməkdaşlığı genişləndirməyə kömək edəcək.

***- Gəlin Cənubi Qafqaz mövzusunu müzakirə edək. Ermənistan-Azərbaycan münasibətlərinin yaxın gələcəkdə həllini mümkün hesab edirsinizmi?***

- Mən bunu mümkün hesab edirəm, çünki qonşu ölkələr arasında münasibətlər qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmalıdır. Bu gün bu proses bir sıra səbəblərə görə mümkün deyil. İki ölkənin indiki vəziyyəti emosiyalar və qarşılıqlı qınaqlar olmadan dərk etməsi üçün vaxt lazımdır.

***- Bu il Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalana bilərmi?***

- 2022-ci ilin necə başladığını nəzərə alsaq, bu prosesin cari ildə başa çatacağı ehtimalı azdır. Eyni zamanda, bu prosesə konstruktiv nöqteyi-nəzərdən baxmaq lazımdır. Hesab edirəm ki, ortamüddətli perspektivdə bu məsələdə vəziyyət yaxşılığa doğru dəyişəcək.

***Tərcümə - Elçin Bayramlı***









RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Donetsk və Qarabağ, yaxud əvəz-əvəz dünyası...

**Rusiya KİV-ləri tez-tez şikayət edirlər ki, Ukrayna silahlı qüvvələri Donetski davamlı olaraq atəşə tuturlar, Ukrayna tərəfinin hər gün atdığı mərmirlər dinc əhalini öldürür və bütün bunların qarşısında dünya nədənsə susur (?)**

Lakin dünya heç də susmur və ayı obrazındakı rus hərbi maşınının Ukraynada hansı qəbulolunmaz üsullardan istifadə edərək din əhalini hədəfə alması barədə yazır. Dünya doğum evlərinin, uşaq bağçalarının, mülki evlərin, qeyri-hərbi obyektlərin vurulmasından, dinc əhalinin savaş meydanını tərk etmələri üçün yaradılmış ”yaşıl dəhlizlərin” raket zərbələrinin hədəfə çevrilməsindən yazır, dünya olanları işıqlandırır!

Və burada Azərbaycanla da paralellər aparmaq olar. Ermənilər 30 il boyunca (!) Livan böyüklüyündə ərazini işğalda saxlayaraq bu torpaqları yerlə-bir ediblər, dağıdıblar, talanlara məruz qoyublar. İnsan itkilərinin sayı barədə isə yenidən xatırlatmağa belə dəyməz!

Azərbaycanlıların yerdə qalanları isə 30 il qaçqın və məcburi köçkün həyatının ağırlığı altında yaşamağa məhkum olublar. Hətta Ermənistan bundan sonra da sakit durmayıb və 30 ilin hər gününü Azərbaycan kəndlərini, şəhərlərini atəş altında saxlamağa davam ediblər. Sözdə atəşkəs müddətində öldürülmüş dinc əhalinin sayı isə Donetskdə ölənlərin sayından dəfələrlə çoxdur!

Lakin maraqlıdır, həmin vaxtlarda siz - Rusiya KİV-ləri bu məlumatları dərc edirdinizmi? Dünyanın diqqətinə çatdırırdınızmı? Ermənilərin özbaşınalıqları barədə geniş təfsilatlı materiallarınızla çıxış edirdinizmi? Cəmi bir neçə barmaqla sayılacaq dürüst media qurumlarından və 3-5 nəfər politoloqlarından başqa Rusiyanın heç bir aparıcı, nüfuzlu kütləvi informasiya vasitəsi Azərbaycanın üzləşdiyi ağır nəticələrlə bağlı bir kəlmə də olsun yazmırdı! Və indinin özündə belə, əlinə imkan düşər-düşməz Azərbaycan hədəfə alınır, Azərbaycan günahkar çıxarılır və s. Bütün bunlar öz yerində...

Lakin Azərbaycan Ordusu erməni həyasızlığına cavab atəşi açan kimi rus mediası dərhal gözünü yumub, ağzını açırdı və sən demə, azərbaycanlılar ”dinc erməni əhalisinə” qarşı ”aqressiya siyasəti” yürüdürmüşlər (?!).

Bax, indi Rusiya mətbuatı, sizinlə eyni hal yaşanır. İndi siz məhz Azərbaycanın 30 il boyunca yaşadığı hissləri yaşamaqdasınız. Əgər Qarabağın erməni istilasına məruz qaldığı zamanlar həm ”suçlu”, həm gə ”güclü” olaraq Azərbaycan ”günahkar” çıxarılırdısa, indiki məqamda, yəni Donetskin atəşə tutulmasında da əsas günahkar tərəf məhz Rusiyadır. Halbuki, Donetskin də Rusiyaya heç bir aidiyyatı yoxdur və bunu bütün dünya bilir. Bəs indi necə olur ki, sizə ağlınıza gəlməyi yazmağınız üçün hər şey olar, amma sizə qarşı fikir bildirmək belə olmaz? Vaxtında siz bizləri görməzlikdən gəlirdinizsə, indi də biz sizi görməzlikdən gəlirik! Belə bir söz var azərbaycanlılarda, əvəz-əvəz dünyasıdır...

İndi həmin bu əvəz-əvəz dünyasında sanksiyalar tətbiq edilən rus KİV-ləri, eləcə də Solovyovlar və başqaları layiq olduqları cəzalarını alırlar...

SON SƏHİFƏ
Səs
11 mart
2022-ci il

# Abramoviç ŞOKDA: "Çelsi"ni sata bilməyəcək!



Böyük Britaniya "Çelsi"nin sahibi olan rusiyalı iş adamı Roman Abramoviçə sanksiyalar tətbiq edib. İngiltərə mətbuatının yazdığına görə, Abramoviçin "Çelsi"də də daxil olmaqla krallıqdakı bütün aktivləri dondurulub. Bu da o deməkdir ki, son bir neçə gündə "Çelsi"yə alıcı axtaran 55 yaşlı iş adamı London təmsilçisini sata bilməyəcək. Lakin Premyer Liqa klubu fəaliyyətini davam etdirmək üçün xüsusi lisenziya alıb.

Qeyd edək ki, Abramoviç fevralın 27-də "Çelsi"nin idarəçiliyini klubun xeyriyyə fondunun qəyyumlarına təhvil verib. Bir neçə gün sonra isə o, "zadəganlar"ı satmaq istədiyini açıqlayıb.

# Ailədaxili münaqişələr nədən qaynaqlanır?



**Bizim əsas işimiz ailə zəminində baş verən münaqişənin cinayətə çevrilmədən qarşısını almaqdır. Cinayət baş verdikdə onun nəticəsi ilə işləmək çox çətin olur. Bu sözləri Trend-ə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Məişət zorakılığı ilə iş üzrə sektorunun baş məsləhətçisi Tural Hüseynzadə deyib.**

"Ümumi zorakılığın üç növü var. Məişət zəminində törədilən zorakılığın isə dörd növü var. Ölkəmizdə ən geniş yayılanı fiziki, psixoloji zorakılıqdır. Bizdə olan rəsmi məlumatlarda iqtisadi və cinsi zorakılığa az rast gəlirik. Demək olar, əksər ailələrdə məişət zorakılığı özünü müəyyən formalarda büruzə verir. Hər bir zorakılığın arxasında psixoloji problem durur. Bəzən bu durumlar qətllə də nəticələnə bilir. Psixoloji zorakılığa gətirən əsas səbəblər anlaşılmazlıqdan, kənar müdaxilələrdən, bir-birinə vaxt ayırmamaqdan da qaynaqlanır."

Komitə rəsmisinin sözlərinə görə, problemlərdən biri də zorakılıqla bağlı müraciətlərin vaxtında edilməməsidir: "Zorakılıqla bağlı mübarizəmizin birinci istiqaməti odur ki, daha əvvəldən bizə müraciət etsinlər. Çünki nə qədər erkən müdaxilə olsa, məsələ fiziki münaqişə zəmininə, qətlə qədər gəlib çıxmaz. Bəzən zorakılığa məruz qalan insan barədə araşdırma apararkən məlum olur ki, heç kimə problemi ilə bağlı müraciət etməyib. Məişət zorakılıqlarının başında psixoloji zorakılıq dayanır. Ən son həddi isə fiziki zorakılıqdır. Bu səbəbdən bölgələr üzrə daha çox ucqar kəndlərə mütəxəssislər cəlb olunur. Bir problem yarandıqda müraciət edin. Vətəndaş Komitəyə müraciət etdikdə, əgər nömrəsi yoxdursa, həmin vətəndaşın problemi yerli icra hakimiyyətlərində yerləşən monitorinq mərkəzlərimiz tərəfindən araşdırılır", - deyə T.Hüseynzadə bildirib.

# Sosial şəbəkə fırıldaqçıları həbs edilib

Pandemiya dövründə (2020-ci il 14 mart- 2022-ci il 1 yanvar) sosial şəbəkələrdə yalan məlumatlar yerləşdirən 100 nəfər müəyyən edilərək onlardan 60-ı cərimələnib, məhkəmələr tərəfindən 40 nəfər isə inzibati qaydada həbs edilib. SİA-nın xəbərinə görə, Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında hesabatında qeyd edilib.



Bildirilib ki, pandemiyanın başladığı dövrdən karantin rejimini pozmaqla xəstəliklərin yayılması üçün real təhlükə yaratma faktlarına görə Cinayət Məcəlləsinin 139-1-ci maddəsi ilə 1 308 cinayət işinin başlanılması təmin edilib.

# Bu beş əlamət insanı 100 yaşa çatdırır...

**Çox insan uzun ömür yaşamaq istəyir. Amma etiraf edək ki, elə çoxumuz orqanizmimizin bu qədər ömrə uyğun olmadığını bilirik. Medicina.az xəbər verir ki, alimlər bir insanın 100 il yaşama şansını göstərən 7 əlaməti tapıblar. Əgər sizdə bunlar varsa, deməli, 100-ə çata bilərsiz.**



**1. Normal çəki və piysiz qaraciyər**

Yaşlandıqca insana bir qədər yağ, piy lazım olur. Amma alimlər bədən çəkisi indeksi normaya yaxın və boyuna uyğun insanların 90 yaşa kimi çatmasını təsdiqləyib. Eləcə də ürək və qaraciyərdə piy toplanması ürək xəstəliklərini artırır. Ona görə daxili orqanların piylənməsinə yol vermək olmaz və mütəmadi yoxlanmalıdır.

**2. Sürətli gəzmək**

Tez-tez, sürətli və çox gəzənlər daha çox yaşayacaq, nəinki evdə, işdə əyləşənlər. Eləcə maşın sükanı arxasında çox olanlarda erkən ürək əlamətləri görülür.

**3. Meyvə, səbzə, tərəvəz çox yemək**

Hətta ət yeməyinin yanında da göyərti, salat, tərəvəz yeyənlər daha sağlam və uzunömürlü olur.

**4. Zəhmətkeşlik, fiziki əmək**

İnsanın ömrü onun nə qədər məşğul olmasından asılıdır. Sutkanın böyük hissəsini hansısa işlə məşğul olan, vaxtı olmayan, məqsədyönlü, aktiv, işsiz dayana bilməyənlərin daha çox yaşaması və keçən illərin fərqində olmadığı sübut olunub. Ətalət halında insan daha çox özünə qapılır, evdən çıxmağa ərinir və məqsədsiz yaşadığı üçün həyat ona mənasız gəlir.

**5. Yaxşı yuxu və xoş əhval**

Sadə bir hadisəyə sevinən, xırda detallardan xoşbəxt olan, dostluğa meyilli, eləcə də sutkalıq gecə yuxusu 7 saat olan insanlar da 100-ə çata bilər. Ümumiyyətlə, yaşlı vaxtı 30 dəqiqəlik gündüz yuxusu da vacibdir. Bu zaman beyin neyronları təmizlənir, aktivləşir və lazımi hormonlar sintez olunur.

## ELAN

Naxçıvan Muxtar Respublikasının Dövlət Yol Polisi tərəfindən İbrahimov Zülfü Vaqif oğlunun adına verilmiş qeydiyyat nömrəsi 72BD313 VAZ 21074 saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3220**